# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* | *№ 34 (1379), 14 - 16 avqust 2018-ci il* | *Qəzet 2001-ci ildən çıxır.*


## Bədii gimnastika üzrə Azərbaycan çempionatına yekun vurulub



Avqustun 10-12-də Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatı və Bakı birinciliyinə yekun vurulub. Yarışlarda ümumilikdə, 117 gimnast mübarizə aparıb.

Həm fərdi gimnastlar, həm də qrup hərəkətləri komandaları arasında qaliblər çoxnövçülük xalına görə müəyyənləşib. Medallar uğrunda Bakı Gimnastika Məktəbi, "Ocaq Sport", "AyUlduz", "Zirvə" İdman klubları, "Sərhədçi" İdman Olimpiya Mərkəzi, Respublika Kompleks İdman Məktəbi, o cümlədən Qusar və Gəncə şəhərlərinin təmsilçiləri mübarizə aparıblar. Fərdi proqram üzrə 2003-2005-ci illər təvəllüdlü gənc gimnastlar arasında halqa, top, gürzlər və lentlə hərəkətlərdə qalib və mükafatçıların adlarına aydınlıq gəlib.

*(ardı 2-ci səhifədə)*

## Atletimiz Avropa çempionatının gümüş medalına layiq görüldü



Azərbaycan yığması Berlində keçirilmiş atletika üzrə Avropa çempionatında gümüş medala sahib olub.

Komandamıza gümüş medalı üçtəkanla tullanma yarışlarında çıxış edən Aleksis Kopello qazandırıb. O, yarışların final mərhələsində 16,93 metr nəticə göstərib. Portuqaliyalı Olimpiya və dünya çempionu Nelson Evora 17,10 metr göstərici ilə Avropa çempionu adını qazanıb. Yunanıstanlı atlet Dimitrios Tsiamis 16,78 metr göstərici ilə bürünc medala yiyələnib.

Azərbaycanın digər idmançısı Nazim Babayev isə 16,76 metr nəticə ilə yunanıstanlı rəqibindən cəmi iki santimetr geri qalaraq dördüncü sırada qərarlaşıb.

Xatırladaq ki, atletlərimiz turnirdə məşqçilər Ziyad Xəlfəyevin və Artyom Rubankonun rəhbərliyi ilə mübarizə aparıblar.



**Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına 52 gün qalır**


*Millimiz Xorvatiya yığmasına qalib gəlib* Səh. 4

Badmintonçularımız mübarizəyə başlayıblar Səh. 4

*Zəka sahiblərimiz Riqadа keçirilən şahmat festivalında* Səh. 4

*Anons*

Federasiya prezidenti 9 yaşlı çapar qızı qəbul edib

*Güləş üzrə məşqçilər korpusunda dəyişiklik edilib*

Avropa çempionatının seçmə mərhələsindəki görüşlərin təqvimi açıqlanıb

*Ölkəmiz beynəlxalq turnirə ev sahibliyi edəcək*

Səh. 2


## Ramil Quliyev Avropa çempionu oldu

Türkiyə millisinin əslən azərbaycanlı sprinteri Ramil Quliyev Berlində keçirilən atletika üzrə Avropa çempionatında qızıl medal qazanıb.

28 yaşlı idmançı 200 metr məsafəyə qaçışda bütün rəqiblərini qabaqlayıb və finişə 19,76 saniyəyə çatıb.

Xatırladaq ki, Ramil Quliyev 2017-ci ildə London keçirilən dünya çempionatında da eyni məsafəyə qaçışda qızıl medal qazanmışdı.




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*



"Neftçi" və "Qəbələ" Topaz Premyer Liqasına qələbə ilə başladı Səh. 6

**Oktay Səmədov:**
*"Müasir dövrün gəncləri dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunublar"* Səh. 3

*"Əsas odur ki, yeniyetmələr sağlam mübarizənin nə demək olduğunu öyrənsinlər"* Səh. 5


## Ölkəmizdə "Baku Open" beynəlxalq turniri keçiriləcək




Sentyabrın 28-30-da ölkəmizdə karate üzrə ənənəvi "Baku Open" turniri keçiriləcək. Doqquzuncu dəfə təşkil ediləcək yarış keçmiş Sovet Sosialist Respublikaları İttifaqında karatenin 40 illik yubileyinə həsr olunacaq.

Turnirdə keçmiş SSRİ-nin müxtəlif respublikalarından tanınmış veteran karate ustaları iştirak edəcəklər.

Bakı İdman Sarayında təşkil olunacaq yarışda uşaqlar, yeniyetmələr, gənclər, böyüklər və veteranlar mübarizə aparacaqlar.

Turnirin açılış mərasiminin sentyabrın 29-da keçirilməsi nəzərdə tutulur.

# Olimpizm

## Yaponiya olimpiada üçün yay vaxtına keçəcək

Yaponiya hökuməti 2019-2020-ci illər dövründə yay dövrünə keçidin mümkünlüyü barədə düşünür. Burada məqsəd Tokio-2020 Yay Olimpiadasında yarışların günün daha sərin vaxtlarında təşkil edilməsini təmin etməkdir. Bu barədə Röyter Agentliyi xəbər yayıb.

Bir müddət əvvəl Tokio-2020 Təşkilat Komitəsinin sədri Yosiro Mori ölkənin baş naziri Sindzo Abeyə yay vaxtına keçilməsi barədə müraciət edib. Belə olan təqdirdə 2019-cu ilin iyun-avqust aylarında Yaponiyada saatlar 2 saat əvvələ çəkiləcək.

Xatırladaq ki, XXXII Yay Olimpiya Oyunları 2020-ci il iyulun 24-dən avqustun 9-dək Yaponiyanın Tokio şəhərində keçiriləcək.

## Riçard Paund vəzifədən gedib



Dünya Antidopinq Agentliyinin (WADA) ilk prezidenti Riçard Paund Beynəlxalq Olimpiya Komitəsinin (BOK) hüquqi məsələlər üzə komissiyasını tərk edib. Bu barədə "İnside the Games" portalı xəbər yayıb.

BOK rəsmilərinin dediklərinə görə, Riçard Paund gedişi ilə komissiyanın heyətinin gəncləşməsini istəyib. Qeyd edək ki, Yay Olimpiya İdman Növləri Federasiyasının prezidenti Patrik Baumann və Paris-2024 Təşkilat Komitəsinin sədri Toni Estanqe də BOK-un hüquqi məsələlər üzrə komissiyasını tərk ediblər.

Xatırladaq ki, Riçard Paund 1999-cu ildən 2007-ci ilə qədər WADA-nın prezidenti olub. 2015-ci ildə o, BOK-un müstəqil komissiyasının sədri kimi Rusiya idmanında dopinq problemlərinin araşdırılmasına rəhbərlik edib. Məhz Riçard Paundun apardığı tədqiqatın nəticəsində Rusiya Antidopinq Agentliyinin fəaliyyəti dayandırılıb və Rusiya Atletika Federasiyası İAAF-ın tərkibindən xaric edilib.

## Atçılıq

# Federasiya prezidenti 9 yaşlı çapar qızı qəbul edib



Son günlər kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə azyaşlı azərbaycanlı qızın məharətlə at çapması barədə məlumatlar yer alıb.

Atçılıq Federasiyası yüksək sürətlə at çapan 9 yaşlı Gülayla maraqlanıb. Qeyd edək ki, Gülayın ailəsi Ağdam rayonunun Ətyeməzli kəndindən qaçqın düşərək Sumqayıt şəhərində məskunlaşıb.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Gülay Fərzəliyeva və onun atası Vüsal Fərzəliyevlə görüşüb. Səmimi keçən görüşdə Gülay at sürməyə 4 yaşından başladığını, atçılıq idmanına böyük maraq göstərdiyini və gələcəkdə bu idman növü ilə peşəkar şəkildə məşğul olmaq arzusunu dilə gətirib.

General-polkovnik Elçin Quliyev Gülayın məşq etməsi üçün əlverişli şəraitin yaradılması, eləcə də, onun atçılıq idmanı ilə məşğul olması üçün zəruri olan süvari ekipirovkası ilə təmin edilməsi barədə göstəriş verib.

## Güləş

# Güləş üzrə məşqçilər korpusunda dəyişiklik edilib

Güləş üzrə ölkə yığma komandalarının məşqçilər korpusunda dəyişiklik edilib.

Azərbaycan Güləş Federasiyası prezidentinin səlahiyyətlərini icra edən, Dünya Güləş Birliyi İcraiyyə Komitəsinin üzvü Namiq Əliyevin əmrinə əsasən yunan-Roma güləşi üzrə yeniyetmələr və kiçik yaşlı yeniyetmələrdən ibarət yığma komandaların məşqçilər korpusunda dəyişiklik edilib. Yeniyetmələrin Avropa və dünya çempionatında yığma komanda üzvlərinin imkanlarından aşağı səviyyədə iştirak etmələrinə görə böyük məşqçi Bəhram Mürvətov, məşqçilər İslam Cəfərov və Fuad Əliyev tutduqları vəzifədən azad ediliblər. Digər əmrə əsasən, Taleh İsrafilov yığma komandanın böyük məşqçisi, Nazim Əhmədov və Rasim Ağayev isə məşqçi təyin ediliblər.

Kiçik yaşlı yeniyetmələrdən ibarət yığma komandanın böyük məşqçisi Əfsər Namazəliyev də işdə yol verdiyi nöqsanlara görə vəzifəsindən azad edilib, Əbülfət Məmmədov və İlham Vəzirov bu yaş qrupundan olan yığmaya məşqçi təyin edilib.

# Yığma komandalarımız Göygöldə

Güləş üzrə ölkə yığma komandaları təqvim planında nəzərdə tutulan qrafik üzrə qarşıdan gələn reytinq xarakterli beynəlxalq turnirlərə hazırlıqları davam etdirir.

Avropa və dünya çempionları toplanışa cəlb olunublar.

Yığma komandamızın baş məşqçisi Şaban Donat bu cür birgə təlim-məşq toplanışlarının idmançıların hazırlığında mühüm rol oynadığını bildirib: "Bir müddət öncədə Türkiyədə beynəlxalq təlim-məşq toplanışında idik. Ardınca Vehbi Emrenin xatirə turnirində güləşçilərimizi yoxladıq. Artıq bir neçə




Bir müddət öncə İstanbulda beynəlxalq təlim-məşq toplanışında iştirak edən yunan-Roma güləşi üzrə yığmamız yenidən birgə təlim-məşq toplanışında başlayıb. Göygöl Olimpiya İdman Kompleksində keçirilən təlim-məşq toplanışına Türkiyənin yunan-Roma güləşi üzrə yığma komandası da iştirak edir. Türkiyə yığmasının baş məşqçisi Salih Boranın başçılığı altında komandanın bütün aparıcı üzvləri, Olimpiya mükafatçıları,

gündür ki, Göygöl Olimpiya İdman Kompleksində ümumi fiziki və taktiki-texniki hazırlıq üzrə təlim-məşq toplanışlarımız başlayıb. Dünya çempionatına qədər bir neçə təlim-məşq toplanışı keçib, idmançılarımızın hazır olmasına çalışacağıq. Burada hazırlıq üçün hər cür şərait yaradılıb".

Məlumat üçün bildirək ki, avqustun 4-dən başlayan təlim-məşq toplanışı ayın 19-dək davam edəcək.

## Cüdo

### *Ölkəmiz beynəlxalq turnirə ev sahibliyi edəcək*

Oktyabrın 13-14-də ölkəmiz yeniyetmələr arasında cüdo üzrə növbəti beynəlxalq turnirə ev sahibliyi edəcək. Şağan Olimpiya İdman Kompleksində keçiriləcək yarışda 10-dan çox ölkəni təmsil edəcək idmançılar iştirak edəcəklər.

Yarışdan sonra Zaqulba tədris-idman mərkəzində 3 günlük təlim-məşq toplanışı təşkil olunacaq.

Qeyd edək ki, yarış "Azəri" cüdo klubun təşkilatçılığı ilə keçiriləcək.



## Gimnastika




# Bədii gimnastika üzrə Azərbaycan çempionatına yekun vurulub

*(əvvəli 1-ci səhifədə)*

Halqa ilə yarışlarda "Ocaq Sport" klubunun yetirmələri ilk 3 pillədə qərarlaşıblar. Beləliklə, Yelizaveta Luzan 17,200 xalla birinci, Nərminə Səmədova 17 xalla ikinci, Arzu Cəlilova isə 14,950 xalla üçüncü yeri tutub. Topla hərəkətlərdə də "Ocaq Sport" klubunun həmin gimnastları fərqləniblər. Lakin bu dəfə Arzu Cəlilova (17,650 xal) qızıl, Yelizaveta Luzan (17,450 xal) gümüş, Nərminə Səmədova (17,150 xal) isə bürünc medala sahib olub. Gürzlərlə yarışlarda Nərminə Səmədova 17,250 xal, Arzu Cəlilova 16,650 xal (hər ikisi "Ocaq Sport" klubu), Dərya Farşbafşəhriyari (Bakı Gimnastika Məktəbi) isə 15,700 xal toplamaqla müvafiq olaraq 1, 2 və 3-cü yerləri bölüşüblər. Lentlə hərəkətlərdə də fəxri kürsünün ilk üç pilləsində "Ocaq Sport" klubunun yetirmələri qərarlaşıblar. İlk yerdə Nərminə Bayramova (15,150 xal) olub. Yelizaveta Luzan (15,100 xal) və Arzu Cəlilova (15 xal) isə I və II yerləri tutublar.

Qrup hərəkətləri yarışlarında isə çoxnövçülük üzrə alətsiz və topla hərəkətlərin ümumi cəminə görə balaca gimnastlardan (2008-2010-cu il təvəllüdlü) ibarət "Ocaq 1" komandası 23,400 xalla birinci yeri tutub. "Ocaq 2" komandası 20,600 xalla ikinci, "Bakı Gimnastika Məktəbi (BGM ) 1" komandası isə 19,300 xalla üçüncü olub.

Yeniyetmələrdən (2006-2007-ci il təvəllüdlü) ibarət komandaların lentlə mübarizəsində isə "Ocaq 1" (8,250 xal), "BGM 3" (7,450 xal) və "Ocaq 2" (6 xal) kollektivləri müvafiq olaraq qızıl, gümüş və bürünc medallara layiq görülüblər.




## Voleybol

# Avropa çempionatının seçmə mərhələsindəki görüşlərin təqvimi açıqlanıb

Voleybol üzrə Avropa çempionatının seçmə mərhələsində İsveç, Lüksemburq, Yunanıstan millıləri ilə qarşılaşacaq kişilərdən ibarət Azərbaycan yığmasının qrupdakı oyunlarının təqvimi müəyyənləşib.

"G" qrupunda mübarizə aparacaq komandamız ilk görüşünü İsveç voleybolçuları ilə keçirəcək. Azərbaycan - İsveç qarşılaşması avqustun 15-də Azərbaycan Voleybol Mərkəzində başlayacaq.

Fərid Cəlalovun baş məşqçisi olduğu yığmamız avqustun 18-də səfərdə Lüksemburq, dörd gün sonra isə Yunanıstan millıləri ilə qarşılaşacaq. Avqustun 26-da komandamız doğma azarkeşlər önündə Yunanıstan yığması ilə görüşəcək. Gələn il yanvarın 5-də təmsilçimiz Lüksemburqu evdə qəbul edəcək. Bundan dörd gün sonra isə voleybolçularımız səfərdə İsveç yığmasının qonağı olacaqlar.

Qrup mərhələsinin nəticələrinə görə, yeddi qrupun hər birində ilk yeri tutacaq komandalar Avropa çempionatının final mərhələsinə birbaşa vəsiqə qazanacaqlar. İkinci yeri tutacaq altı milli isə qalan beş vəsiqə uğrunda mübarizə aparacaq.

## Həndbol

# Avrokuboklarda ölkəmizi üç klub təmsil edəcək




Yeni mövsümdə həndbol üzrə avrokuboklarda Azərbaycanı üç komanda təmsil edəcək. Qadınlardan ibarət "Azəryol" komandası "Çağırış kuboku" turnirində, son ölkə çempionu "Azərsu" isə "EHF Cup" uğrunda yarışlarda mübarizə aparacaq. Kişi həndbolçulardan ibarət "Bakı" komandası isə "Çağırış kuboku" turnirində etimadı doğrultmağa çalışacaq.

Ölkəmizi Avropa miqyaslı yarışlarda təmsil edən həndbol komandalarından biri "Azəryol"dur. Qadın həndbolçulardan ibarət klub 2017-ci ilin fevralında təsis olunub. Yarandığı ildə həndbol üzrə 24-cü Azərbaycan çempionatında iştirak edən paytaxt təmsilçisi gümüş mükafata layiq görülüb. Həmin il çimərlik həndbolu üzrə ikinci Azərbaycan çempionatında da qüvvəsini sınayan "Azəryol" bu yarışda da mükafatçılar sırasına yüksəlib. "Azəryol-1" və "Azəryol-2" adı ilə yarışlarda iştirak edən klubun həndbolçuları etimadı doğruldublar. Belə ki, "Azəryol-1" çempionatın gümüş medallarına sahib olub.

"Azəryol"un Avropa Həndbol Federasiyasının "Çağırış kuboku" turnirində debütü də uğurlu alınıb. İlk mərhələdə Lüksemburqun "HB Düdelanj" komandasına hər iki görüşdə qalib gələn komandamız rəqibi mübarizədən kənarlaşdırıb. Lakin dörddəbir final mərhələsində komandamız "Kristiansiad" (İsveç) səddini adlaya bilməyib. Komanda 25-ci Azərbaycan çempionatını da gümüş medallarla bitirib. Ölkə kuboku uğrunda yarışlarda isə fəxri kürsüdən kənarda qalan "Azəryol" çempionatın gümüş mükafatçısı kimi yenidən "Çağırış kuboku" turnirində ölkəmizi təmsil edəcək.

Qadın həndbolçulardan ibarət daha bir komandamız - "Azərsu" klubu 2017-ci ilin iyulunda yaradılıb. "Azərsu" ən yüksək nəticəsinə 25-ci Azərbaycan çempionatında imza atıb. Komanda sözügedən yarışın baş mükafatına layiq görülüb. Çimərlik həndbolu üzrə ölkə çempionatında çıxışı uğursuz alınan "Azərsu" komandası Azərbaycan kuboku uğrunda yarışlarda yenidən inamlı təsir bağışlayaraq ikinci pillənin sahibi olub. Son ölkə çempionu "EHF Cup" uğrunda yarışlarda qüvvəsini sınayacaq.

Kişi həndbolçulardan ibarət "Bakı" komandasının da təməli 2017-ci ilin iyulunda qoyulub. Yarandığı gündən iddiaçılar sırasında olan paytaxt klubu mükafatları sıralayıb. Əvvəlcə çimərlik həndbolu üzrə ikinci Azərbaycan çempionatına qatılan komanda gümüş medalların sahibi olub. Ardınca XXV ölkə çempionatı və Azərbaycan kuboku uğrunda yarışlarda bütün rəqiblərini üstələyən "Bakı" 2017-2018-ci il mövsümünü qızıl dubla yekunlaşdırıb. Bununla kifayətlənməyən paytaxt həndbolçuları mayın 9-dan 11-dək Bakıda keçirilən, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən beynəlxalq turnirdə də inamla mübarizə aparıblar. Qələbəyə əsas namizədlərdən sayılan "Bakı" bu turniri ikinci pillədə başa vurub. Ümumilikdə isə mövsümün ən uğurlu komandalarından hesab olunan "Bakı", "Çağırış kuboku" uğrunda yarışlarda da etimadı doğrultmağa çalışacaq.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

*“Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir”.*

*Heydər Əliyev*

# Oktay Səmədov:

## *“Müasir dövrün gəncləri dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunublar”*

***Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir və təbii ki, hər bir dövlətin missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Ümummilli lider, müdrik siyasətçi Heydər Əliyev məktəbinin davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir.***

***2014-cü ildə yaradılan Bilik Fondu da ölkənin gənclər siyasətinin qarşıya qoyduğu məqsəd və vəzifələrin icra edilməsində səmərəli fəaliyyət göstərən qurumlardan biridir. “Olimpiya dünyası” olaraq qurumun fəaliyyəti, uşaq və gənclərlə bağlı gördüyü işlərlə ətraflı tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru, pedaqoji elmlər namizədi, dosent Oktay Səmədovla görüşməyi qərara aldıq. Oktay müəllim fondun gördüyü işlərdən, həyata keçirdiyi layihələrdən, gələcək planlardan danışdı.***



***- Oktay müəllim, rəhbərlik etdiyiniz Bilik Fondunun maarifləndirici fəaliyyəti cəmiyyətimiz tərəfindən müsbət dəyərləndirilir. Bir çox maraqlı və faydalı layihələrə imza atmısınız. Fond uşaq və gənclərlə bağlı daha hansı tədbirlər həyata keçirməyi planlaşdırır?***

- Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun əsas məqsədi maarifləndirmə, elmi biliklərin artırılması, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi dəyərlərin təbliği, dövlətin daxili və xarici siyasətinin mahiyyətinin əhaliyə çatdırılmasıdır. Uşaqlar, yeniyetmələr və gənclər Bilik Fonunun bu istiqamətdə həyata keçirdiyi layihələrin ünvanlandığı əsas təbəqədir. Maarifləndirmə işi elmi-texniki, ictimai-siyasi, sosial-iqtisadi, ekoloji və humanitar sahələrdə aparılır. Fondun maarifləndirici proqramlarından, “Qardaşlaşmış məktəblər”, “Dünya elmi Azərbaycanda”, “Vətənin pərvəri ol!”, “Yazmağı bacaracaqsan”, “Vətən mənə oğul desə...”, “İmzalı görüş”, “Gənclikdən soraq”, “Cümhuriyyət tariximiz - qürurumuzdur” kimi layihələrindən, Qax, Oğuz, Şəmkir, Nardaran, Astara, Tərtər, İsmayıllı, Ağstafa və Ağdaşda fəaliyyət göstərən Bilik Evlərindəki təlim kursları və dərnəklərdən minlərlə gənc faydalanır.

Ali məktəb tələbələrinin istehsalat təcrübəsinin Bilik Fondunda təşkili artıq ənənəyə çevrilib və bu günə kimi 90 tələbə təcrübəni məhz Fondda keçib. Bilik Fondu yeniyetmə və gənclərin iştirakı ilə dəfələrlə respublika səviyyəli və beynəlxalq elmi konfranslar və dəyirmi masalar, bilik yarışları və yaradıcılıq müsabiqələri, sərgilər və təqdimatlar keçirib. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, milli-mənəvi dəyərlərə sahib çıxması, onların elmi biliklərinin artırılması, sağlam həyat tərzinə sövq edilməsi ilə bağlı müxtəlif mövzularda alimə və tədqiqatçıların, tanınmış ziyalıların mühazirə və təlimləri təşkil edilib. 2014-cü ildən başlayaraq hər il 15 sentyabr - Bilik günündə orta və ali təhsil müəssisələrində Bilik Fondunun bir dərs saatı keçirilir. Bu ilin Bilik günündə gənclərimiz üçün “Cümhuriyyət tariximiz qürurumuzdur” mövzusunda mühazirələr təşkil etmək niyyətindəyik.

Qarşıdan gələn yeni tədris ilində orta-ixtisas və ali məktəb tələbələrini bir araya gətirən “Bilik körpüsü” və dövlət dilimizin geniş təbliğinə yönəlmiş “Dilimiz - sərvətimizdir” layihələrinin icrasına başlanılacaq. Fondun nəzdində yaradılmış “Tariximizi öyrənək və öyrədək”, “Gənc jurnalistlər”, “Diplomatlar” kimi gənclər klublarında da yeniliklər gözlənilir. Bundan başqa, “Azərbaycan Xalq Cümhuriyyəti İli” kimi yadda qalacaq cari ilin sonunda AMEA ilə birgə magistrlərin I Beynəlxalq Elmi Konfransının təşkilini planlaşdırmışıq.



### Bilik Fondu mühüm və əhəmiyyətli layihələr həyata keçirir

***- Fondun həyata keçirdiyi ilk layihələri barədə nə deyə bilərsiniz?***

- Bilik Fondunun ilk həyata keçirdiyi layihə “Dini abidələrdə tarixin izləri” oldu. Bu layihəyə əsasən, Bərdəki İmamzadə Kompleksində qəbirüstü yazılar, daş kitabələr alimlərimiz tərəfindən oxundu, dilimizə tərcümə edildi. Bunun üçün Azərbaycan Milli Elmlər Akademiyasının alimləri cəlb edildi. Layihəyə Bərdədə yaşayan gənclər də cəlb etdik. “Qardaşlaşmış məktəblər” layihəsi isə ikinci işimiz oldu. Məqsəd müxtəlif regionlardan olan məktəblilər arasında bilik “körpüsü”nün təşkil edilməsi, onların biri-biri ilə dostluq münasibətlərinin yaradılması idi. Maraqlıdır ki, Xəzərin sahilində yerləşən Bakı məktəblisi uzaq dağ rayonunda ucqar kənd məktəbində qonaq olur, buranın təbiəti, tarixi barədə bilik əldə edir. Layihə çərçivəsində məktəblilər arasında intellektual oyunlar, idman yarışları təşkil edirik. Bu da təbii ki, onların arasında dostluq münasibətlərinin yaranmasında böyük rol oynayır. Qeyd edim ki, bu layihədə ümumilikdə, indiyədək 60 orta məktəb, o cümlədən Rusiya, Türkiyə və Gürcüstan məktəbləri də iştirak edib.

Ölkə rəhbərinin şəxsi təşəbbüsü ilə reallaşdırılan “Ölkəmizi tanıyaq” layihəsi cəmiyyətdə böyük maraqla qarşılanır. Bu layihə təhsil prosesinə mane olmamaq üçün məktəblilərin tətil günlərində həyata keçirilir. Bir bölgənin uşaq və gəncləri digər bölgəyə səfər də olur və həmin bölgənin tarixi, mədəniyyəti ilə tanış olmaq imkanı əldə edirlər. Məhz “Ölkəmizi tanıyaq” bizi “Qardaşlaşmış məktəblər” layihəsinin icrasına həvəsləndirdi.

### “Şagirdlər ölkənin idman həyatı barədə məlumatlı olmalıdırlar”

***- Necə düşünürsünüz, orta məktəblərdə idmanın tədrisinə kifayət qədər vaxt ayrılırmı?***

- Orta məktəblərdə fiziki tərbiyə dərsləri dövrün tələbinə uyğun olaraq fəal aparılmalıdır. Fiziki tərbiyə müəllimi dərs vaxtı şagirdləri müxtəlif növ idman oyunlarına cəlb etməklə yanaşı, onlara ölkənin idman həyatında baş verən yeniliklər, idmançılarımızın qazandığı uğurlar barədə məlumat versə, çox faydalı olar. Şagird idman və Olimpiya Hərəkatının yüksək sürətlə inkişaf etdiyi ölkədə Olimpiya, dünya və Avropa çempionları, yaxud da, paytaxt və bölgələrdə istifadəyə verilən Olimpiya idman kompleksləri barədə niyə də bilməsin?! Ümumiyyətlə, orta məktəb şagirdləri Azərbaycanda idmanın inkişaf tarixi barədə məlumatlı olmalıdırlar. Ölkənin tanınmış idmançıları, idman xadimləri ilə mütamadi görüşlərin təşkil edilməsi gənc nəslin idman ruhunu artırmış olar. Bunun üçün idman müəllimi özü də yüksək təfəkkürə malik, kreativ düşüncəli ziyalı olmalıdır.

Düşünürəm ki, orta məktəblərdə kütləvi idman tədbirlərinin tətil vaxtı təşkili barədə də düşünməliyik. Fiziki tərbiyə, idman üçün əlverişli vaxt elə yay mövsümüdür. Bu vaxtdan səmərəli istifadə etmək lazımdır. Avropada bu mövsümdə idman yarışlarına köklənmiş yay məktəbləri fəaliyyət göstərir.

***- Necə düşünürsünüz, bilik dünyanı xilas edəcəkmi?***

- Əsrlər boyu insanlar ərazi, mal-sərvət uğrunda biri-biri ilə müharibə aparıblar, indi də aparırlar. Düşünürəm ki, bunların əsasında savadsızlıq, cahillik durur. Daim inkişaf edən elmi-texniki tərəqqinin nailiyyətləri insanlara qarşı deyil, onların rifahının yaxşılaşdırılmasına yönəldilsə, dünyamızda əmin-amanlıq olardı. Elmin inkişafı nəcib əməllərə xidmət etməlidir.

***-Uşaqlar üçün nəşr edilən kitablar barədə nə deyə bilərsiniz?***

- Təəssüf ki, bir çox hallarda uşaq kitablarının nə tərtibatı, nə də məzmunu bu günün tələblərinə cavab vermir. Kitablar uşaqların diqqətini cəlb etməli, onları maraqlandırmalıdır. Kitab həyatda olanları, baş verənləri dolğunluğu ilə əks etdirməlidir. Acınacaqlı faktdır ki, maarifləndirmə baxımından elmi-kütləvi kitablar az nəşr olunur. Elmi-kütləvi kitabların orta məktəblərdə təbliği şagirdlərin biliklənməsi üçün çox vacibdir.

***- Milli və mənəvi dəyərlərimiz necə qorunur?***

- Azərbaycan xalqı həm ağsaqqala hörməti, kiçiyə qayğıkeşliyi, həm də qonaqpərvərliyi ilə həmişə seçilib, tanınıb. Dövlətimiz milli-mənəvi dəyərlərin qorunub saxlanması və gələcək nəslə ötürülməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Ailə dəyərlərinin qorunması, nikahın davamlılığı mühüm şərtdir. Çünki ailə kiçik dövlətdir və onu nəyin bahasına olursa olsun qorumaq lazımdır.

### “Bugünümüzün gəncləri qüdrətli dövlətin vətəndaşlarıdırlar”

***- 1980-ci illərdən tələbə gənclərlə işləyirsiniz. Necə düşünürsünüz, o zamanın gəncləri ilə müasir dövrün gəncləri arasındakı fərq, ümumiyyətlə, müsbət və mənfi dəyişikliklər nədən ibarətdir?***

- 1986-cı ildə Moskva şəhərində Pedaqoji Elmlər Akademiyasının aspiranturasını bitirib ali məktəbdə - M.F.Axundova adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universiteti) işləməyə başladım. Burada müəllim, baş müəllim, dosent, şöbə müdiri, elmi katib, prorektor vəzifələrində çalışmışam. Daim gənclərlə ünsiyyətdə olmuşam. Onların istəkləri, qayğıları və problemləri mənə çox tanışdır. 90-cı illərin əvvəlləri xüsusilə çətin dövr idi. Gənclərə xüsusi həssaslıqla yanaşmaq tələb olunurdu. Ölkədəki ictimai-siyasi vəziyyət gənclərə də öz təsirini göstərirdi.

Əlbəttə, o zamanın və müasir dövrün gəncləri arasında böyük fərq var. Bu günümüzün gəncləri 80-ci illərin gənclərindən fərqli olaraq, müstəqil, güclü iqtisadiyyata malik, milli-mənəvi dəyərlərinə sahib çıxaraq beynəlxalq aləmdə tanınan qüdrətli bir dövlətin vətəndaşlarıdırlar. Müasir dövrün gəncləri dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunublar. Ölkəmizdə onların təhsil almaları, savadlı və bilikli, peşəkar mütəxəssis kimi yetişmələri, xalqa və dövlətə sadiq vətəndaş kimi formalaşmaları üçün hər şərait yaradılıb. Yetər ki, gənc nəsil bu şəraitdən düzgün və dolğun şəkildə istifadə etməyi bacarsın. Müstəqil dövlətin vətəndaşı olaraq müstəqil həyata qədəm qoyan hər bir gəncin şüuruna bu fikir daim hakim kəsilməlidir: “Azərbaycanın sabahı mənimlə açılır”. Özündə gənclik ruhunu yaşatmaq istəyənlər, elə yaşlandığı dövrdə də, bu fikirdən uzaq düşməməlidirlər.

***- Bu gün gənc nəslin tərbiyə və təhsili məsələsində sizi qane edən və etməyən nədir?***

- Dünyada baş verən bir çox hadisələrə ikili standartlarla yanaşmanın mövcud olduğu, ümumbəşəri və əxlaqi dəyərlərin müəyyən dərəcədə itirildiyi, elmi-texniki tərəqqinin məhsulu olan informasiya bolluğunda müəyyən çətinliklər yaşandığı müasir dövrümüzdə gənc nəslin təlim və tərbiyəsində ciddi problemlərlə üzləşməli oluruq. Bu problemlər tamhüquqlu ölkə vətəndaşı kimi formalaşma dövrünü keçən yeniyetmə və gənclərin həm tərbiyəsinə, həm də təhsilinə, sözsüz ki, təsir göstərir. Bu, qaçılmazdır. Yalnız təsirin gücünü zəiflətmək mümkündür. Gənc nəsil vakuumda yetişdirilmir: ətraf ictimai-siyasi, sosial-iqtisadi,elmi-mədəni, hətta ekoloji mühit təlim və tərbiyə prosesinə öz müsbət və ya mənfi təsirini göstərməkdədir.

Müasir Azərbaycan cəmiyyətində bu istiqamətdə mühüm işlər görülür. Azərbaycan Respublikası Prezidentinin gənclərin təlim və tərbiyəsinə, təhsilinə və məşğulluğuna göstərdiyi yüksək diqqət və qayğı, Heydər Əliyev Fondunun Azərbaycan təhsilinin inkişafında xüsusi əhəmiyyət kəsb edən layihələri, ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və bilavasitə iştirakı ilə həyata keçirilən tədbirlər buna bariz nümunədir.

Gənclərin layiqli vətəndaş və ləyaqətli şəxsiyyət kimi tərbiyə olunmaları, yüksək səviyyədə təhsil almaları istiqamətində dövlət tərəfindən atılan uğurlu addımlar göz qabağındadır. Son illər ərzində inşa edilən, əsaslı təmir edilib istifadəyə verilən məktəblərin sayına görə Azərbaycanla müqayisə edilə biləcək ölkə varmı?! Bütün bölgələr əhatə olunmaqla, Gənclər evlərinin, Olimpiya idman komplekslərinin, uşaq və gənclər yaradıcılıq mərkəzlərinin sayı kifayət qədərdir. Gənclərin bilik və bacarıqlarını, istedadlarını, yaradıcılıq qabiliyyətlərini nümayiş etdirmək üçün münbit şərait yaradılıb. Bizə, övlad tərbiyəsi ilə məşğul olan valideynlərə, yeniyetmə və gənclərimizə təhsil verən müəllimlərə, gənc nəslin inkişafında böyük təsir gücünə malik ziyalılarımıza sabah xalqımızı və ölkəmizi etibar edəcəyimiz gənclərimizə yalnız düzgün istiqamət vermək gərəkdir.

Bağça tərbiyəçiləri və məktəb müəllimlərinin peşəkar və müasir zamanın tələblərinə uyğun hazırlığına, uşaqlarımıza əxlaqi keyfiyyətlərin aşılanması yollarının daha məzmunlu və rəngarəng olmasına, hər bir gəncin dövlətimizin insan kapitalının ayrılmaz tərkib hissəsi olduğunun onlara dərk etdirilməsinə, gənclərin şüurunda “biliklisənsə - güclüsən” anlamının möhkəmlənməsinə, hər bir gəncin ailəsinə bağlı, xalqına etibarlı, ölkəsinə gərəkli, dövlətinə sadiq vətəndaş kimi formalaşması naminə bütün imkanların səfərbər edilməsinə xüsusi diqqət ayırmalıyıq.

### “Dövlətə sədaqətlə xidmət etməliyik”

***- İki övladınız var. Onların tərbiyəsində əsas hansı cəhətlərə xüsusi diqqət yetirmisiniz?***

- Övladın atası vasitəsilə tanınması dövrünü adlanmışam, indi oğullarım vasitəsilə tanınmaq dövründəyəm. Bununla da həyat mövqeyim izah olunur: övladlarımın hər bir cəhətdən məndən üstün olmalarını istərdim.

Ailədə qarşılıqlı hörmət, insanlarla münasibətdə səmimilik, qayğıkeşlik, işində səliqə-səhman, yüksək məsuliyyət daha çox diqqət yetirdiyim keyfiyyətlərdir. Övladlarıma da bu keyfiyyətləri təlqin etməyə çalışmışam.

***- Ölkəmiz müharibə şəraitində yaşayır. Belə vəziyyətdə bizdən, xüsusilə də gənclərdən nə tələb olunur?***

- Ölkəmiz üçün ağır şəraitdə bir şəxsiyyət kimi savab əməl və niyyət saflığı nümayiş etdirməli, bir vətəndaş kimi dövlətə sədaqətlə xidmət etməliyik. Belə bir dövrdə şagird və ya tələbənin borcu isə dərslərinə can yandırmaq, çalışqan, fəal olmaqdır. Bu Vətən hamımızındır və hər birimiz ona vətəndaşlıq borcumuzu ödəməliyik.

***- Hansı təşkilatlarla sıx əməkdaşlıq edirsiniz? Gənclər və İdman idarələri ilə əlaqələr necə qurulub?***

- Bilik Fondu yarandığı gündən bir çox müəssisə və təşkilatlarla əməkdaşlıq edir. İndiyədək 50-dən çox təşkilatla əməkdaşlığa dair rəsmi sənəd imzalanmışdır. AMEA institutları və ali məktəblər, nazirliklər və komitələr Fondu mühazirəçilərlə təmin edir, orta təhsil müəssisələrinin əməkdaşları Bilik Evlərində fəaliyyət göstərən təlim kursları və dərnəklərə cəlb olunurlar, elm və tədris mərkəzləri bir cox konfranslarda və dəyirmi masalarda təşkilatçı qismində çıxış edirlər. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Tibb Universiteti “Tibbi maarifləndirmə”, Azərbaycan Dövlət İqtisad Universiteti, Kənd Təsərrüfatı Nazirliyinin və AMEA-nın müvafiq qurumları “İqtisadi maarifləndirmə”, Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsi, AMEA-nın Fəlsəfə, Hüquq və İnsan Haqları institutları “Hüquqi maarifləndirmə”, Milli Kitabxana və Akademiyanın Mərkəzi Elmi Kitabxanası, Azərbaycan Yazıçılar Birliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi “Mədəni maarifləndirmə”, şəhər və rayonların yerli İcra Hakimiyyəti orqanları və Heydər Əliyev Mərkəzləri “İdeoloji, sosial və elmi maarifləndirmə” proqramları üzrə müxtəlif layihələrin icrasında Bilik Fonduna yaxından köməklik göstərirlər.

Bakıda yerləşən rayonların gənclər və idman idarələri idmanın və sağlam həyat tərzinin təbliği istiqamətində keçirilən tədbirlərin təşkilində fəal iştirak edirlər. Son dövrdə I Avropa Oyunları, Formula-1 yarışları, IV İslam Həmrəyliyi Oyunları ərəfəsində Fond tərəfindən keçirilmiş təqdimatlarda bu qurumlarla əməkdaşlıq xüsusilə faydalı olmuşdur.

***- Fond ölkə rəhbərinin göstərişi ilə bərpa olunmuş Cocuq Mərcanlı kəndində dəfələrlə olub. Bu barədə nə deyə bilərsiniz?***

- Əzəli torpaqlarımıza böyük qayıdışın başlanğıcı olan Cocuq Mərcanlıya hər bir səfərimiz unudulmazdır. Kənd əhalisinin əzmkarlığı və nikbinliyi, yerli məktəblilərin təhsilə meylliliyi və çalışqanlığı bizi, yol yoldaşlarımız olan alimlərimizi hər dəfə sevindirib və ruhlandırıb. Kənd məktəbinə 1000-dən çox kitab hədiyyə etmişik. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında keçirdiyimiz Beynəlxalq Şagird Konfransı kimi böyük elmi tədbirdə kiçik Cocuq Mərcanlı məktəbi də layiqincə təmsil olunub. Və bu, hələ başlanğıcdır. Əminik ki, işğaldan azad olunan hər kəndin azyaşlı sakini gələcəkdə böyük uğurlara imza atacaq.

***- Necə düşünürsünüz, uğurun əsasında duran əsas amillər hansılardır?***

- Zəka - zəhmət, əqidə, kamillik və aqillik.

***- Sonuncu mütaliə etdiyiniz kitab?***

- Tanınmış fransız yazıçısı Bernard Verberin “Nisbi və mütləq biliklər ensiklopediyası”.

***- Hobbiniz varmı?***

- Mütaliə.

***- Müsahibə üçün təşəkkür edir, işlərinizdə uğurlar arzulayırıq.***

- Bir vaxtlar dərs dediyim tələbəmin 30 ildən sonra məndən “Olimpiya dünyası” qəzetinin əməkdaşı kimi müsahibə alması çox xoş oldu. Mən də öz növbəmdə ölkədə idman, Olimpiya Hərəkatının inkişafı və təbliğində öz dəsti-xətti olan qəzetinizə yaradıcılıq uğurları arzu edirəm.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Zəka sahiblərimiz

## Riqada keçirilən şahmat festivalında

Latviyanın paytaxtında "Riqa Texniki Universiteti Open-2018" turniri başlanıb.

7 turnirdən ikisində vaxta nəzarət klassik qaydada aparılır. İsveçrə sistemi üzrə keçirilən bu turnirlər 9 turdan ibarətdir.

Əsas turnirdə 35 ölkədən 260 şahmatçı, o cümlədən 25 qrossmeyster iştirak edir. Azərbaycanı festivalda FIDE ustası Vüqar Manafov və Rasim Mehdiyev təmsil edir. Üç turdan sonra A turnirində hərəyə 3 xal toplamış 9 şahmatçı liderlik edir. 38 şahmatçı, o cümlədən Vüqar Manafov onlardan yarım xal geri qalır.

Festivalın proqramına klassik şahmatla yanaşı, blits və sürətli şahmat yarışları da daxildir.

* * *



Avqustun 11-də Sent-Luis şahmat klubunda dünyanın aparıcı şahmatçılarının iştirakı ilə "Grand Chess Tour" turnirinin rapid və blits yarışları üzrə üçüncü mərhələsi start götürüb. Yarışlarda ənənəvi "Biel International Chess Festival"ın baş turnirinin qalibi azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov da iştirak edir.

Turnirdə həmyerlimizlə yanaşı, amerikalılar Fabiano Karuana, Uesli So, Hikaru Nakamura, Lenyer Dominqes, fransalı Maksim Vaşye-Laqrav, rusiyalılar Sergey Karyakin, Aleksandr Qrişuk, ermənistanlı Levon Aronyan və hindistanlı Vişvanatan Anand mübarizə aparırlar.

Rapiddə hər qələbə 2 xal, heç-heçə 1 xal dəyərləndirilir. Blitsdə isə qələbə 1 xal, heç-heçə yarım xal hesablanır.

Vaxta nəzarət: rapiddə - 25 dəqiqə üstəgəl hər gediş üçün 10 saniyə, blitsdə - 5 dəqiqə üstəgəl hər gediş üçün 3 saniyə. Oyunlar avqustun 11-13-də rapid, avqustun 14 və 15-də isə blits üzrə keçiriləcək.

"Grand Chess Tour"un üçüncü mərhələsinin ümumi mükafat fondu 150 min ABŞ dolları təşkil edir.

Turnirə avqustun 15-də yekun vurulacaq.

* * *

Əbu-Dabidə 25-ci beynəlxalq şahmat festivalı davam edir. Yarışlar çərçivəsində "Masters", "Open", "Juniors" turnirləri keçirilir.

İsveçrə sistemi üzrə 9 turda keçirilən "Masters" turnirində 31 ölkədən 161 şahmatçı, o cümlədən 58 qrossmeyster mübarizə aparır. Bu turnirdə Azərbaycan idmanının şərəfini beynəlxalq usta Günay Məmmədzadə və FİDE ustası Rəvan Əliyev qoruyurlar.

Nüfuzuna görə ikinci sayılan "Open" turnirində 36 ölkədən 150 idmançı iştirak edir. Turnirin reytinq-favoriti Çexiyadan olan ustalığa namizəd Pavel Haasedir (2177). Azərbaycan şahmatçısı Fərid Mustafayev reytinqdə ikinci yerdədir.

"Juniors" turniri isə 19 ölkədən 150 şahmatçının iştirakı ilə keçirilir. Bu mərhələdə yarışlarda Rəvan Əliyev və Fərid Mustafayev mübarizə aparırlar. Onların əsas rəqibləri Hindistan, Çexiya, Qazaxıstan, Özbəkistan, Çin və digər ölkələrin nümayəndələridir.

## Millimiz Xorvatiya yığmasına qalib gəlib

Qadın voleybolçulardan ibarət Azərbaycan yığması Sloveniyada hazırlıqları davam etdirir.

Komandamız təlim-məşq toplanışı çərçivəsində Xorvatiya millisi ilə yoldaşlıq görüşü keçirib.

Faiq Qarayevin yetirmələri rəqibinə hər üç setdə qalib gəliblər - 3:0 (25:14, 25:19, 25:16).

Qeyd edək ki, millimiz bu il sentyabrın 29-dan oktyabrın 20-dək Yaponiyada keçiriləcək voleybol üzrə dünya çempionatına hazırlaşır.



*Müsahibə*

# "Hər iki işimin məsuliyyətini yaxşı dərk edirəm"

***Bu gün Azərbaycan cüdosu özünün yüksəliş dövrünə qədəm qoyub. İdmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi nəticələr bunun aydın təzahürüdür. Bu nailiyyətlərin əldə olunmasında yerli mütəxəssislərin və federasiyanın müstəsna rolu vardır. Azərbaycan Cüdo Federasiyasının rəhbərliyi yeni fəaliyyət dövründə idmançılar, məşqçilər və hakimlər üçün lazımi şərait yaradıb. Federasiya tərəfindən şərait yaradılan, onların əməli fəaliyyətlərində dəstək olunan hakimlərdən biri də Mətin Rəhimlidir.***



Gənc yaşlarından idmanın cüdo növü ilə məşğul olan Mətin müəllim hazırda cüdo idman növü üzrə yarışlarda ədaləti qoruyur.

Mətin Rəhimli 1968-ci il avqustun 6-da Naxçıvan şəhərində anadan olub. Uşaq yaşlarından ailəsi ilə birgə "gənclər şəhəri" olan Sumqayıta köçüb. Orta məktəbi elə bu şəhərdə bitirən Mətin Rəhimli, eyni zamanda idmanla da məşğul olub. Məşqlərə gimnastika və futbolla başlasa da, 10 yaşından etibarən tanınmış mütəxəssis Fərhad Agayevin məşqlərində iştirak edib. Sonralar isə Sumqayıtda cüdonun inkişafında böyük əməyi olmuş Filman İsmayılovun yanında cüdo idman növünün sirlərinə yiyələnib. O, tezliklə məşqçilərin ümidlərini doğruldaraq şəhər və respublika çempionatlarında mükafatçılar sırasında yer alıb. Bununla yanaşı beynəlxalq turnirlərin qalibi, həmçinin SSRİ birinciliklərinin iştirakçısı olub. 1986-cı ildə SSRİ idman ustası normasını yerinə yetirən Mətin Rəhimli sonradan cüdo üzrə yarışlarda özünü hakim kimi sınamağa başlayıb. Ölkəmizi bir sıra mötəbər yarışlarda təmsil edən Mətin müəllim 2016-cı ilin aprel ayında İtaliyanın Liqnano şəhərində keçirilən Avropa kuboku yarışlarında beynəlxalq dərəcəli hakim tituluna yiyələnib. Mətin Rəhimli 1995-ci ildən etibarən Hava Nəqliyyatında Baş Gömrük İdarəsində çalışır. O, gömrük xidməti polkovnikleytenantıdır. Qısa zaman ərzində bir sıra uğurlara sahib olan Mətin Rəhimli ilə görüşüb, onunla idmandakı fəaliyyəti ilə bağlı söhbət etdik.

***- Siz eyni zamanda həm gömrükçü və həm də hakim kimi fəaliyyət göstərirsiz. Hər iki sahənin çox məsuliyyətli olduğunu nəzərə alsaq, bu sahələrdə fəaliyyət göstərmək sizə çətinlik yaratmır ki?***

- Əvvəlcə qeyd edim ki, hər iki işimin məsuliyyətini yaxşı dərk edirəm. Beynəlxalq dərəcəli hakim kimi fəaliyyət göstərmək üçün mənə Azərbaycan Cüdo Federasiyası tərəfindən göstərilən dəstək yetərincədir. Azərbaycan Respublikası Gömrük Komitəsinin rəhbərliyi, eləcə də Hava Limanında Baş Gömrük idarəsinin rəisi gömrük xidməti polkovniki Bəhruz Quliyev də lazımi şəraiti yaradır. Gənclər və İdman Nazirliyi də öz növbəsində bizə böyük dəstək olur. Yaradılan bu şəraitdən sonra ölkəmizi beynəlxalq aləmdə təmsil etmək mənim üçün çətin olmur.

***- Mətin müəllim, uzun müddətdir ki, cüdo yarışlarında hakimlik edirsiniz. Bu işdə çətinlik yaranmır ki?***

- Bəli, bir neçə ildir ki, istər ölkədaxili, istərsə də beynəlxalq yarışlarla ədalət təmsilçisi kimi çıxış edirəm. Əvvəllər bu iş mənə bir qədər çətin gəlirdi. Buna görə ilk öncə hakimliklə bağlı biliklərimi artırmağa çalışdım. Əgər beynəlxalq yarışlarda iştirak ediriksə, xarici dil bilmək vacibdir.

Bildirmək istəyirəm ki, 2015-ci ildə ölkəmizdə birinci Avropa Oyunlarından sonra bu sahəyə olan həvəsim daha da artdı. Qərara aldım ki, cüdodakı gələcək fəaliyyətimi hakim kimi davam etdirim. İstərdim, yaxın müddətdə A kateqoriyasına yiyələnib, ölkəmizi daha mötəbər yarışlarda, xüsusilə Yay Olimpiya Oyunlarında təmsil edim. Bir sözlə Azərbaycan cüdosuna xidmət etmək istəyirəm.

***- Siz neçə illik təcrübəyə əsaslanıb, məşqçi kimi də fəaliyyət göstərə bilərdiniz. Seçiminiz isə hakimlik oldu.***



- Düzdür, mən məşqçi kimi də özümü sınaya bilərdim. Bu potensialı özümdə görürdüm. Lakin düşündüm ki, mən ölkə idmanına daha çox hakim kimi xeyir verə bilərəm. Ölkəmizdə çoxlu güclü cüdoçular var və bu cüdoçuların davamçılarının yetişməsi üçün biz hakimlərin üzərinə böyük məsuliyyət düşür. Bunun üçün biz hakimlər ölkə birinciliklərini tam şəffaf və ədalətli keçirməliyik. Ona görə də neytral hakimlərə ehtiyac böyükdür. Hal hazırda federasiya rəhbərliyinin göstərişi ilə mən bu iş üzərində çalışıram.

***- Bildiyimizə görə, federasiyanın hakimlər kollegiyasının üzvü kimi, eyni zamanda, bölgələrdə də fəaliyyətinizi davam etdirirsiniz. Bu fəaliyyəti hansı istiqamətdə həyata keçirirsiz?***

- Artıq bir neçə ildir ki, federasiya rəhbərliyi bölgələrdə cüdonu inkişaf etdirmək üçün bir sıra işlər görür. Bölgələri də əhatə edən bu işlərə tanınmış mütəxəssis Tərlan Poladov rəhbərlik edir. Mən isə öz növbəmdə regionlarda hakimləri seleksiya edərək, onların güclü hakim kimi yetişmələri üçün əlimdən gələni əsirgəmirəm. Onlarla tez-tez internetlə, eləcə də federasiya tərəfindən təşkil olunan seminarlarda görüşüb, fikir və təcrübə mübadiləsi aparıram.

***- Həyatda çətinlikləriniz olubmu? Belə hallardan necə çıxırsız?***

- Əlbəttə. Həyat çətinliklər üzərində qurulub. Bu hallarda soyuqqanlı və səbrli olmağa və vaxtımı daha çox ailəmlə keçirməyə çalışıram.

***- Yarıməsrlik ömrü qət etmisiniz. Bu barədə öz-özünüzə hesabat vermisiniz?***

- Maraqlı sualdır. Bu yaxınlarda bu münasibətlə ailəm, dostlarım və qohumlarımla bir araya toplaşmışdıq. Həmin tədbirdə qısa çıxış edib bildirdim ki, həyatda bütün uğurlara ətrafımda olan ən yaxın insanların mənəvi dəstəyi sayəsində nail olmuşam. Amma bu 50 ildə qazandığım ən bahalı və ən qiymətli hədiyyəm mənim ailəmdir.

***- Dostlarınız sizdən soruşanda ki, Mətin müəllim, övladımızı hansı idman növünə cəlb edək, cavabınız necə olur?***

- Bu sualı mənə tez-tez ünvanlayırlar. Bildirirəm ki, uşağın marağına və fiziki imkanlarına uyğun seçim aparılsın. Burada yaş həddi mütləq nəzərə alınmalıdır. Erkən yaşda ağır idman növləri ilə məşğul olmaq məsləhət deyil. Çalışıb kiçik yaşlarında üzgüçülük və gimnastikaya üstünlük vermək lazımdır. Erkən yaşda bu idman növləri ilə məşğul olan uşaqların bədən quruluşu möhkəm olur. Yalnız 9-10 yaşlarından sonra cüdo ilə məşğul olmağı onlara tövsiyyə edirəm.

***- Arzular yaşamaq üçün bir səbəbdir. Həyat arzular üzərində qurulub. Daha hansı arzularınızın həyata keçməsini istəyirsiniz?***

- Doğrudan da, bu belədir. Arzular insan həyatında mühüm rol oynayır və heç vaxt tükənmir. Həyatda bu günə kimi bəzi arzularıma çatmışam. Ən əsası can sağlığıdır. Bu olmadan heç bir arzudan danışmaq mümkün deyil. Ən əsası istəyirəm ki, övladlarımın xoş günlərində onlarla birlikdə olum və gördüyüm işlərlə insanlara yararlı olum.

***Anar Əhmədov***

## Badmintonçularımız mübarizəyə başlayıblar

Badminton üzrə Azərbaycan millisinin üzvləri Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni Beynəlxalq Badminton Federasiyasının təqvim planında yer alan turnirlərdə çıxışlarını davam etdirirlər.

Belə yarışlardan biri də avqustun 13-də Bolqarıstanın paytaxtı Sofiyada start götürən "Eurasia Bulgarian Open Championship" turniridir. Reytinqi yüksək olan Edi Reski Dviçayo yarışa əsas, Ezmi Qovimuramadhoni isə təsnifat mərhələsindən başlayıb. Turnirə avqustun 16-da yekun vurulacaq.




Azərbaycan badmintonçuları daha sonra Ukraynanın Xarkov şəhərində keçiriləcək "RSL Kharkiv International" turnirində mübarizə aparacaqlar. Avqustun 29-dan sentyabrın 2-dək təşkil ediləcək yarışda Edi Reski Dviçayo mübarizəyə əsas, Ezmi Qovimuramadhoni isə təsnifat mərhələsindən başlayacaq.

## "Qarabağ" məğlub olaraq mərhələ şansını azaltdı

Avqustun 7-də futbol üzrə UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinin ilk matçında Ağdamın "Qarabağ" klubu Tofiq Bəhramov adına Respublika Stadionunda Belarusun BATE (Borisov) komandası ilə qarşılaşıb.

Qarşılıqlı hücumlar şəraitində keçən matçda "Qarabağ" təşəbbüsə yiyələnsə də, bundan istifadə edə bilməyib. Əvəzində, matçın birinci hissəsində qonaqlar hesabı açıblar. Oyunun 36-cı dəqiqəsində BATE-nin heyətində Stanislav Draqun adını tabloya yazdırıb - 0:1. İlk hissə elə bu hesabla başa çatıb.

Fasilədən sonra "Qarabağ" hesabı dəyişmək üçün irəli atılsa da, ağdamlıların cəhdləri nəticəsiz qalıb. Oyunda başqa qol olmayıb və matç qonaqların minimal hesablı üstünlüyü ilə başa çatıb.

Beləliklə, "Qarabağ" komandası UEFA Çempionlar Liqasının 2018-2019-cu il mövsümünün üçüncü təsnifat mərhələsinin ilk oyununda doğma meydanda Belarusun BATE komandasına uduzaraq növbəti mərhələ şansını cavab görüşünə saxlayıb. Cavab qarşılaşması avqustun 14-də oynanılacaq.

Qeyd edək ki, bu mərhələnin qalibi Hollandiyanın PSV klubu ilə qarşılaşacaq. Mübarizəni dayandıran klub isə Avropa Liqasının pley-off mərhələsində "Şerif" (Moldova) -"Valur" (İslandiya) qarşılaşmasının qalibi ilə üz-üzə gələcək.

Avqustun 8-də keçirilən ikinci oyun günündə PAOK Yunanıstanda Rusiyanın "Spartak" komandasını (3:2), "Zaltsburq" Avstriyada Makedoniyanın "Şkendiya" klubunu (3:0) məğlub edib. "Seltik" isə Şotlandiyada Yunanıstanın AEK klubu ilə hərəyə bir qolla kifayətləniblər - 1:1.

Avqustun 7-də keçirilən oyunlarda isə aşağıdakı nəticələr qeydə alınıb:

"Astana" (Qazaxıstan) - "Dinamo" (Zaqreb, Xorvatiya) - 0:2

"Malmö" (İsveç) - "Videoton" (Macarıstan) - 1:1

"Slaviya" (Praqa, Çexiya) - "Dinamo" (Kiyev, Ukrayna) - 1:1

"Standard" (Belçika) - "Ayaks" (Hollandiya) - 2:2

"Srvena Zvezda" (Serbiya) - "Spartak" (Trnava, Slovakiya) - 1:1

"Benfika" (Portuqaliya) - "Fənərbağça" (Türkiyə) - 1:0

Cavab görüşləri bu gün oynanılacaq.



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# “Əsas odur ki, yeniyetmələr sağlam mübarizənin nə demək olduğunu öyrənsinlər”

***Azərbaycan öz idman ənənələri ilə fərqlənən ölkədir. Bu, dövlət tərəfindən idmanın və bədən tərbiyəsinin inkişafına göstərilən yüksək diqqət və qayğı ilə əlaqədardır. Beynəlxalq arenalarda əldə olunan hər bir nəticə ölkəni bütün dünyada tanıdır. Bundan başqa isə həmin ölkədə idmanın daha da kütləvləşməsini və birbaşa olaraq sağlam cəmiyyətin formalaşmasını təmin edir. Müşahidələr təsdiq edir ki, idmanla məşğul olan yeniyetmə və gənclər öz həmyaşıdlarına nisbətən daha cəsarətli olur, inamlı addımlar atır. Bu mənada hər bir insanın həyatında idman və bədən tərbiyəsinin əvəzsiz rolu var.***

Yeniyetmə və gənclər arasında idmanın, bədən tərbiyəsinin təbliği, onlar arasında kütləviliyə nail olmaq üçün respublikada bir sıra idman qurumları fəaliyyət göstərir. Paytaxtın rayonlarındakı gənclər və idman idarələrinin isə bu istiqamətdə müstəsna xidmətləri var.

“Olimpiya dünyası” qəzeti olaraq rayonların idman həyatını daim diqqətdə saxlayırıq.



Bu gün özünün idman sahəsindəki nəticələri ilə fərqlənən rayonlardan biri də Qaradağdır.

Son illər Azərbaycan öz idman uğurları ilə bütün dünyada fəxr edir. Beynəlxalq yarışlarda qazanılan yüksək nəticələr, həmçinin mötəbər idman tədbirlərinə, o cümlədən tarixdə ilk Avropa Oyunlarına (2015), IV İslam Həmrəyliyi Oyunlarına layiqli ev sahibliyi ölkəmizdə bu sahəyə göstərilən diqqət və qayğıdan, sürətli inkişafdan xəbər verir. Yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafını qarşısına əsas məqsədlərdən biri kimi qoyan dövlətimiz idmanın və bədən tərbiyəsinin kütləviləşməsi, insanların zərərli vərdişlərdən uzaqlaşıb idman zallarına üz tutmaları üçün əsaslı addımlar atır. Onlardan biri də artıq uzun illərdir ki, paytaxtın bütün rayonlarında gənclər və idman idarələrinin fəaliyyət göstərməsidir. Belə rayonlardan biri də Qaradağdır. Kifayət qədər geniş əraziyə malik olan Qaradağ rayonu 1923-cü ildə yaradılıb və müxtəlif vaxtlarda adı dəyişdirilib. Rayonun ərazisində 11 qəsəbə var, onlardan da ən böyüyü Lökbatandır. Ümumilikdə rayon sakinlərinin sağlamlığı və asudə vaxtının səmərəli keçirilməsi üçün hər bir şərait mövcuddur.

## “İdmanın bu günkü vəziyyəti bizi ancaq sevindirə bilər”

Böyük bir ərazini əhatə edən Qaradağ rayonunda idman sahəsində bir çox uğurlar qazanılıb. İdmana həvəs və maraq kifayət qədərdir. Elə nəticələr də bunu sübut edir. Bütün bunları rayonun Gənclər və İdman İdarəsinin rəisi Elçin Abbasovla görüşərkən öyrəndik. Qaradağda idmanın inkişafının həmişə diqqət mərkəzində olduğunu qeyd edən Elçin müəllim bunları dedi: “Rayonumuzda idmanın bugünkü vəziyyəti bizi ancaq sevindirə bilər. Rayonumuzda futbola, cüdoya və əlbəyaxa döyüş növlərinə böyük maraq var. Qaradağın ərazi vahidliyinə daxil olan qəsəbələrinin, demək olar ki, hər birində bir və ya bir neçə cüdo klubu fəaliyyət göstərir. Bu da birbaşa olaraq yeniyetmə və gənclərin həmin növə olan tələbatları ilə bağlıdır. Qeyd etdiyim kimi, əlbəyaxa döyüş növləri də Qaradağda inkişaf etməkdədir. Ümumiyyətlə, çalışırıq ki, bu inkişaf bütün idman növlərində hiss olunsun. Biz Qaradağ Gənclər və İdman İdarəsi olaraq rayonumuzda idmanın inkişafı üçün lazım olan bütün addımları atmağa çalışırıq. Ümid edirik ki, gələcəyin Olimpiya çempionları sırasında Qaradağ idmançılar da olacaq”.

## “Olimpiya ümidlərindən Tokio-2020-yə qazanılan vəsiqəyə qədər...”

Uğur hər bir insana yeni güc, motivasiya verən bir vasitədir. Dahilərin uğur haqqında aforizmləri çoxdur. Onlar uğurun sirrini səbrdə və əzmkarlıqda görürlər. Qaradağ idmançıları uğurları əzmkarlıqla əldə edirlər.

Qazanılan nailiyyətlərdən danışan Elçin müəllim qeyd etdi ki, Qaradağ rayon idmançıları bu il ərzində Bakı şəhər birinciliyində müxtəlif idman növlər üzrə 8 qızıl, 6 gümüş, 17 bürünc medala sahibi olublar. Beynəlxalq miqyaslı yarışlarda da nəticələr qənaətbəxş sayılır. Belə ki, qaradağlı idmançılar 4 qızıl, 7 gümüş və 13 bürünc mükafata yiyələniblər.

Yanvarın 7-12-də gənclər arasında boks üzrə Azərbaycan çempionatında rayonu bir idmançı təmsil edib ki, o da gümüş medal qazanıb. Martın 3-də Şağan Olimpiya İdman Kompleksində WKC karate-do üzrə respublika çempionatı keçirilib. Həmin yarışda 17 karateçidən üçü (1 qızıl, 1 gümüş, 1 bürünc) bir dəst medal əldə edib. Mart ayının 12-16-da “Şüa” İdman Kompleksində təşkil olunan stolüstü tennis üzrə Azərbaycan birinciliyində Qaradağ idmançıları uğurla çıxış ediblər. 6 tennisçidən 3-ü gümüş, 3-ü isə bürünc medala layiq görülüb. Martın 12-23-də futbol üzrə Novruz bayramına həsr olunmuş Bakı şəhər turnirində Qaradağ komandası çempion adını qazandı. Martın 23-də “Olimpiya ümidləri” layihəsi çərçivəsində təşkil olunan tennis üzrə Bakı şəhər birinciliyində rayonun 5 idmançısı mükafatçılar sırasında yer alıb (1 qızıl, 1 gümüş, 3 bürünc). Xüsusilə qeyd etmək istərdim ki, mayın 15-29-da Fransada keçirilən pouerliftinq üzrə Avropa çempionatında Pərvin Məmmədov qızıl medal qazanıb. Bununla da o, Tokio-2020 Paralimpiya oyunlarına vəsiqə qazanıb.

## Qaradağ rayonunda idmanın kütləviliyi artmaqdadır

Bütün idman qurumları kimi gənclər və idman idarələrinin, o cümlədən bizim qurumun da əsas məqsədlərindən biri də idmanın və bədən tərbiyəsinin kütləviliyini təmin etməkdir. Çünki kütləvilik olan yerdə uğur da olur. Kütləviliyin daha da artırılması üçün müntəzəm olaraq müxtəlif idman yarışları, tədbirlər təşkil olunmalıdır. Elçin Abbasovun verdiyi məlumatlardan sonra bu nəticəyə gəlmək olar ki, bu istiqamətdə Qaradağ Gənclər və İdman İdarəsi öz işinin öhdəsindən layiqincə gəlir. Onun sözlərinə görə, 2018-ci ilin 7 ayı ərzində, Qaradağ rayon Gənclər və İdman İdarəsi tərəfindən 7067 nəfərin iştirakı ilə 42 tədbir keçirilib. Bundan əlavə rayon təmsilçiləri bədən tərbiyəsi və idman sahəsi üzrə 47 şəhər yarışında, 26 ölkə birinciliyində, 9 beynəlxalq görüşdə ümumilikdə isə 82 tədbirdə iştirak ediblər. “Ölkəmizdə futbolun inkişafı istiqamətində hər il ənənəvi olaraq məhəllə komandaları arasında iki yaş qrupu üzrə rayon birinciliyi təşkil olunur. Cari ildə rayonun kiçikyaşlı futbolçuları “Sevinc” kubokuna sahib olublar. Digər yaş qrupu üzrə komanda isə həmin yarışda ikinci yerə layiq görülüb. 2 fevral-Gənclər gününə həsr olunmuş şahmat üzrə rayon turnirində 55 nəfər yarışıb. Fevralın 2-də təşkil olunan dama üzrə rayon birinciliyində isə 42 gənc mübarizə aparıb. Fevralın 2-dən martın 5-dək davam edən 2001-2002-ci il təvəllüdlü uşaqlar arasında futbol üzrə rayon turniri təşkil olunub. Martın 1-də Təlim-İdman bazasında 5 mart - Bədən tərbiyəsi və idman gününə həsr olunmuş həvəskar gənclər arasında kross üzrə rayon birinciliyində 38 nəfər öz bacarığını nümayiş etdirib. Martın 1-dən 5-nə kimi yeniyetmə və gənclər arasında keçirilən stolüstü tennis üzrə rayon turnirində isə 50 nəfər iştirak edib. Martın 4-də gənc oğlan və qızlar arasında atletika üzrə rayon birinciliyində 59 iştirakçı mübarizə aparıb. Martın 29-dan aprelin 1-nə qədər keçirilən qızlar arasında dördnövçülük üzrə rayon birinciliyində 10 komanda yarışıb. Martın 22-24-də “Yeni Sahil” İdman Kompleksində Novruz bayramına həsr olunmuş sərbəst güləş üzrə rayon birinciliyində 264 idmançı çıxış edib. Aprelin 3-4-də Olimpiya Hərəkatı-2018 çərçivəsində atletika üzrə rayon birinciliyi keçirilib. Həmin yarışda 24 komandanı təmsil edən 72 idmançı mübarizə aparıb. May ayının 1-3-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə yeniyetmə və gənclər arasında stolüstü tennis üzrə açıq rayon birinciliyində 85 nəfər iştirak edib. Mayın 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən estafet qaçışı üzrə rayon birinciliyi təşkil edilib. Mayın 25-dən 31-nə kimi 2006-2007-ci illər









təvəllüdlü uşaqlar arasında mini-futbol üzrə rayon birinciliyi davam edib. 23 may-10 iyun tarixlərində rayon futbol meydançalarında 2003-2004 və 2005-2006-cı illər təvəllüdlü uşaqlar arasında “Sevinc” kuboku uğrunda futbol üzrə növbəti rayon turniri keçirilib. İyunun 1-də Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə bağlı olaraq 65 nəfərin iştirakı ilə qızlar və oğlanlar arasında 64 xanalı dama üzrə rayon turniri keçirilib. İyunun 5-15-də gənclər arasında voleybol üzrə rayon birinciliyi təşkil olunub. 15 iyun-Milli Qurtuluş gününə həsr olunmuş bu yarışda 10 komandadan 144 nəfər mübarizə aparıb. Sadaladığım yarışlardan və iştirakçıların sayından bu qənaətə gəlmək olar ki, rayonumuzda idmanın kütləviliyi artmaqdadır”, - deyə Elçin müəllim ətraflı məlumat verdi.



## Fiziki tərbiyə dərslərinin keyfiyyətini daim nəzarətdə saxlayırıq

Uşaq və yeniyetmələr arasında idmanının təbliğinə nail olmaqla onları zərərli vərdişlərdən uzaqlaşdırıb, sağlam həyat tərzinə yönəltmək mümkündür. Bu barədə danışan müsahibimiz bildirdi ki, Qaradağ rayonunda bu danışılan məsələyə xüsusi həssaslıqla yanaşırlar. Elə bu məqsədlə də mütəmadi olaraq müxtəlif idman tədbirlərinə ev sahibliyini orta məktəblərə həvalə edirlər. “Həqiqətən, bu xüsusi qayğı tələb edən bir məsələdir. Məktəblilər elə yaş dövründə olurlar ki, nəyi görsələr, nəyi eşitsələr daha çox ona meyl göstərirlər. Bu istiqamətdə valideyn və müəllimlərlə yanaşı, bizim də üzərimizə böyük məsuliyyət düşür. Rayonumuzun ərazisinin kifayət qədər geniş olmasına baxmayaraq, qəsəbələrdəki təhsil müəssisələrində fiziki tərbiyə dərslərinin keyfiyyətini daim nəzarətdə saxlayırıq.

Bu il ərzində məktəblilərin 10 idman növü üzrə-velosiped, voleybol, stolüstü tennis, dördnövçülük, dama, şahmat, basketbol, futbol, güllə atıcılığı, atletika yarışları başa çatıb. Bu idman növlərində fərqlənən idmançılarımız şəhər birinciliyində onlara göstərilən etimadı doğruldublar. Yarışların məhz orta məktəblərdə təşkil edilməsi təşəbbüsü öz nəticəsini verir. Məsələn, yanvarın 19-22-də VII sinif şagirdləri arasında “Coca-cola” kuboku uğrunda futbol üzrə rayon mərhələsinin final yarışları keçirildi. Həmin yarışda 4 komandanı təmsil edən 48 futbolçu iştirak edib. 195 saylı məktəb ən yaxşı nəticəni göstərərək birinci olub. 288 və 319 saylı məktəblər isə müvafiq olaraq, ikinci və üçüncü yerləri tutublar. Yanvarın 22-dən fevralın 5-nə kimi 106 saylı məktəbin idman zalında 7 komandadan 84 nəfərin iştirakı ilə basketbol üzrə 2005-2006-cı illər təvəllüdlü qızlar arasında rayon birinciliyi təşkil olunub. 106, 139 və 288 saylı məktəblər, müvafiq olaraq, ilk üçlükdə qərarlaşıblar. Yanvarın 3-dən fevralın 2-nə kimi “Gənclər günü”nə həsr olunmuş həndbol üzrə rayon birinciliyində 7 komandanı təmsil edən ümumilikdə 84 idmançı qüvvəsini sınayıb. Gərgin keçən mübarizədə 223 saylı məktəbin həndbolçuları çempionluğa sevindilər. Fevralın 1-5-də 2005-2006-cı illər təvəllüdlü oğlanlar arasında basketbol üzrə rayon turniri təşkil olunub. 273 saylı məktəbin ev sahibliyi həmin yarışda 8 komandadan 96 nəfər mübarizəyə qoşulub. 319 saylı məktəbin komandası yarışı birinciliklə başa vurub.139 və 106 saylı məktəbin basketbolçuları isə ikinci və üçüncü yerlərə layiq görülüblər. Martın 19-dan 22-nə kimi Novruz bayramına həsr olunmuş 2008-2009-cu illər təvəllüdlü uşaqlar arasında rayon turniri 319 saylı məktəbin idman zalında keçirilib. 5 komandadan 45 idmançının iştirakı ilə keçirilən yarışda 319 saylı məktəb ən yaxşı nəticəni göstərib. İkinci yerə 106, üçüncü yerə 273 saylı məktəblərin komandaları layiq görülüblər. Maraqlı cəhət ondan ibarətdir ki, adını çəkdiyim təhsil ocaqları həm də təhsil sahəsindəki uğurları ilə fərqlənirlər. Bu da “təhsil, ya idman?” dilemmasını puça çıxararaq sübut edir ki, onlar paralel inkişaf etməlidirlər”, - deyə Qaradağ Gənclər və İdman İdarəsinin rəisi söylədi.

## “Peyntbol gənclərin ən çox sevdiyi idman oyunlarından biridir”

Hazırkı dövrdə gənclərin, o cümlədən idmançıların vətənpərvərlik ruhunda böyümələri olduqca vacibdir. Elçin Abbasov bildirdi ki, bu məsələ Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılovun diqqət yetirdiyi əsas məsələlərdən biridir. Çünki təcrübələr göstərir ki, vətənpərvərlik ruhunda tərbiyə olunan idmançı yarışlarda daha inamlı və əzmkar çıxış edir. Bu barədə danışan Elçin Abbasovun sözlərinə görə, qəlbində vətən eşqi olmayan insan heç vaxt onun müqəddəs rəmzləri uğrunda mübarizə apara bilməz. Elçin müəllim, həmçinin qeyd etdi ki, bu günkü gəncləri hərbi-vətənpərvərlik ruhunda böyütməklə yanaşı, həm də onlarda ekstremal şəraitdə, kollektiv şəkildə mübarizə aparmaq vərdişlərini aşılamaq lazımdır. Bunun üçün isə artıq uzun illərdir ki, məktəblərin 10-11-ci sinif şagirdləri arasında “Şahinlər” hərbi-idman yarışları təşkil olunur. Söhbət zamanı “Şahinlər” hərbi-idman oyunlarının əhəmiyyətindən danışan müsahibimiz Qaradağ rayonunun məktəblilərinin bu yarışlarda layiqli şəkildə iştirak etdiyini də dedi: ““Şahinlər” hərbi-idman oyunu gənclərin vətənpərvərlik ruhunun möhkəmləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Çünki tədris proqramına müvafiq olaraq yeniyetmə dövründən başlayaraq məktəblilərə hərbi-hazırlıq dərsi tədris olunur ki, bu da hərb sənətinin ilkin addımlarıdır. Məqsəd isə gəncləri ordu sıralarına hazırlamaq, onlarda hərb sənətinə maraq yaratmaq və şübhəsiz ki, əsl vətəndaş kimi formalaşmalarına istiqamət verməkdir. Sevindirici haldır ki, rayonumuzda bu oyunlara maraq kifayət qədərdir. Biz hər il bunun şahidi oluruq. Müntəzəm olaraq keçirilən Qaradağ rayon birinciliyində məktəblilərin mübarizliyi, iradəsi bizi fərəhləndirir. Əlbəttə, yarışlarda hansı məktəbin komandasının qalib olması vacib deyil. Əsas odur ki, yeniyetmələr sağlam mübarizənin nə demək olduğunu öyrənsinlər”, - deyə həmsöhbətimiz bildirdi.

Son illər yeniyetmə və gənclər arasında böyük maraq qazanan idman növlərindən biri də peyntboldur. Peyntbolun inkişafı Qaradağ rayonunda da diqqətdən kənarda qalmır. Artıq üçüncü ildir ki, Qaradağda bu idman növü üzrə rayon birinciliyi keçirilir. Aprelin 21-də Sahil qəsəbəsində təşkil olunan sonuncu birincilikdə hər birinin tərkibində 6 oyunçu olmaqla 10 komanda iştirak edib. Bu barədə ətraflı danışan Elçin Abbasov məlumat verdi ki, gərgin mübarizə şəraitində keçən oyunun sonunda qaliblər Qaradağ rayon Gənclər və İdman İdarəsi tərəfindən diploma və kubokla təltif olunublar. “5-6 il əvvələ kimi peyntbolun nə olduğunu, bəlkə də, çox gənc bilmirdi. Amma bu gün peyntbol gənclərin ən çox sevdiyi idman oyunlarından biridir. Bu, çox yaxşı haldır. Müşahidələr göstərir ki, peyntbola marağı olanlar hərbiyə də daha həvəsli olurlar. Biz də öz növbəmizdə çalışırıq ki, gənclərin maraqlarına, həvəslərinə cavab verək. Bu məqsədlə də artıq bir neçə ildir ki, peyntbol üzrə rayon birinciliyi təşkil edirik. Sonuncu yarışmızla ilk birinciliyi müqayisə edəndə görürük ki, gənclər daha təcrübəli, daha texnikalıdırlar. Həm də rəqabət daha ciddidir. Sözsüz ki, rəqabət də inkişafla nəticələnir”, - deyə o öz fikirlərini bölüşdü.

Göründüyü kimi, Qaradağ rayonunda yeniyetmə və gənclər arasında idmana həvəs və maraq günü-gündən artmaqdadır. Bu, Qaradağ Rayonu Gənclər və İdman İdarəsinin gördüyü məqsədyönlü işlərdən xəbər verməklə yanaşı, eyni zamanda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına təkan verir. Rayonların hər birinin Gənclər və İdman idarələri öz işlərinin öhdəsindən layiqincə gəlməklə bütünlüklə Azərbaycanda bu sahənin daha da kütləviləşməsinə öz töhfələrini verməlidirlər. Necə deyərlər, yumruq möhkəm olmalı və bir yerə vurulmalıdır.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Futbol



# "Neftçi" və "Qəbələ" Topaz Premyer Liqasına qələbə ilə başladı

Avqustun 11-də futbol üzrə Azərbaycan Topaz Premyer Liqasının 2018-2019-cu il mövsümünə start verilib.

Yeni mövsümün açılış matçında "Sumqayıt" klubu doğma azarkeşlər önündə - "Kapital Bank Arena"da "Neftçi" komandasını qəbul edib. Maraqlı idman mübarizəsi şəraitində keçən oyunda hesabı qonaqlar açıblar. Matçın 27-ci dəqiqəsində cinah ötürməsini "Neftçi"nin heyətində Mirabdulla Abbasov başla dəqiq tamamlayıb - 0:1. Birinci hissə "Neftçi"nin minimal hesablı üstünlüyü ilə başa çatıb.

Qarşılaşmanın 66-cı dəqiqəsində sumqayıtlıların oyunçusu Vüqar Hüseynov ikinci sarı vərəqə alaraq meydandan kənarlaşdırılıb. Azlıqda qalan Sumqayıt təmsilçisi matçın 72-ci dəqiqəsində qapısında ikinci topu görüb. Müdafiəçilərin səhvindən istifadə edən Emin Mahmudov hesab arasındakı fərqi artırıb - 0:2. Qalan dəqiqələrdə qapılara top vurulmayıb və "Neftçi" yeni mövsümə qələbə ilə başlayıb.

Birinci turun növbəti görüşü Qəbələ şəhər stadionunda eyniadlı komanda

**Turnir cədvəli**

| Klublar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Qəbələ | 1 | 1 | 0 | 0 | 3-0 | 3 |
| 2. Neftçi | 1 | 1 | 0 | 0 | 2-0 | 3 |
| 3. Sabah | 1 | 1 | 0 | 0 | 1-0 | 3 |
| 4. Qarabağ | 0 | 0 | 0 | 0 | 0-0 | 0 |
| 5. Zirə | 0 | 0 | 0 | 0 | 0-0 | 0 |
| 6. Keşlə | 1 | 0 | 0 | 1 | 0-1 | 0 |
| 7. Sumqayıt | 1 | 0 | 0 | 1 | 0-2 | 0 |
| 8. Səbail | 1 | 0 | 0 | 1 | 0-3 | 0 |



ilə "Səbail" klubu arasında keçirilib. Avqustun 12-də keçirilən oyun meydan sahiblərinin böyük hesablı qələbəsi ilə yekunlaşıb - 3:0. Hesab matçın 21-ci dəqiqəsində açılıb. Asif Məmmədov fərqlənərək "Qəbələ"ni hesabda irəli çıxarıb. Matçda daha 2 qol isə fasilədən sonra vurulub. 63-cü dəqiqədə kapitan Ürfan Abbasov, 81-ci dəqiqədə isə yeni transfer Ceyms Adeniyi fərqlənib.

Bununla da "Qəbələ" Premyer Liqada ilk böyük hesablı qələbənin müəllifi olub.

Topaz Premyer Liqasında birinci tura avqustun 12-də keçirilən "Keşlə" və "Sabah" komandalarının oyunu ilə yekun vurulub. "ASK Arena"da keçirilən oyunda "Keşlə" klubu çempionatın debütantı "Sabah"a məğlub olub. Qarşılaşma "Sabah"ın 1:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda yeganə qol matçın birinci hissəsinin sonunda vurulub. Belə ki, hakimin təyin etdiyi 11 metrlik cərimə zərbəsini Marko Deviç dəqiq yerinə yetirib. İkinci hissədə "Keşlə"nin oyunçuları təhlükəli vəziyyətlər yaratsa da hesab dəyişilməyib.

Beləliklə, Premyer Liqanın debütantı "Sabah" klubu ilk tura qələbə ilə başlayıb.

Qeyd edək ki, avqustun 10-da keçirilməsi nəzərdə tutulan "Qarabağ" - "Zirə" matçı Ağdam təmsilçisinin Çempionlar Liqasında çıxışına görə təxirə salınıb.

Bu komandalar arasındakı oyun sentyabrın 26-da keçiriləcək.

## Topaz Premyer Liqası

**11 avqust**

**20:00. "Sumqayıt" - "Neftçi" - 0:2**

**Qollar:** Mirabdulla Abbasov, 27, Emin Mahmudov, 72

**Qırmızı vərəqə:** Vurğun Hüseynov, 66 ("Sumqayıt")

**Hakimlər:** Rauf Cabbarov, Mübariz Haşımov, Rahil Ramazanov, İnqilab Məmmədov

***Bakı, "Dalğa Arena"***

**12 avqust**

**19:00. "Qəbələ" - "Səbail" - 3:0**

**Qollar:** Asif Məmmədov, 21 (1:0), Ürfan Abbasov, 63 (2:0), Ceyms Adeniyi, 82 (3:0)

**Hakimlər:** Əliyar Ağayev, Rza Məmmədov, Zeynal Zeynalov, Orxan Məmmədov

***Qəbələ şəhər stadionu***

**12 avqust**

**21:00. "Keşlə" - "Sabah" - 0:1**

**Qol:** Marko Deviç, 45+2 (penalti)

**Hakimlər:** Rəhim Həsənov, Nahid Əliyev, İsgəndər Əliyev, Ramil Diniyev

***Bakı, "ASK Arena".***

Müsahibə

# Yetirmələri ilə fəxr edən cüdo mütəxəssisi

***Azərbaycanın Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, Əməkdar məşqçi Azər Bağırov ölkəmizdə cüdo idman növü üzrə fəaliyyət göstərən tanınmış mütəxəssislərdən biridir. O, 1963-cü il də Bakı şəhərində anadan olub. İdmanın cüdo bölməsinə yazılan Azər müəllim bu idman növünün sirlərinə Tərlan Həsənovun köməyi ilə yiyələnib. Məşqçilik fəaliyyətində bir sıra klublarda çalışan mütəxəssis yeniyetmə və gənc cüdoçuların uğur qazanmasında böyük pay sahibi olub. Bu yaxınlarda cüdo mütəxəssisi ilə redaksiyamızda görüşüb, söhbət etdik. Müsahibimiz ona ünvanlanan sualları səmimi cavablandırdı.***



***- Azər müəllim, əvvəlcə sizi ad gününüz münasibəti ilə təbrik edirik. Əvvəlcə, istərdik, bir qədər özünüz haqqında oxucularımıza məlumat verəsiniz.***

- 1970-1980-ci illərdə 13 saylı orta məktəbdə təhsil almışam. Uşaqlıqdan idmana böyük həvəsim var idi. 1972-ci ildə cüdo ilə məşğul olmaq üçün "Lokomotiv" idman cəmiyyətinə üz tutdum. Burada məni təcrübəli məşqçi Tərlan Həsənov qarşıladı. Elə məşqlərimə də Tərlan müəllimin rəhbərliyi altında başladım. O, mənə səbr və təmkinlə cüdonun sirlərini, incəliklərini öyrədirdi. Mənə düzgün istiqamət verən və uğurlar qazanmağımda köməyini əsirgəməyən qocaman mütəxəssisimizə minnətdarlığımı bildirirəm. Tərlan müəllimin, həqiqətən də, üzərimdə çox böyük əziyyəti olub. Onu da qeyd edim ki, məndən böyük iki qardaşım da cüdo idman növü ilə məşğul olublar.

***- Azər müəllim, sizin üçün bu günə kimi ən yadda qalan ad günü hansı olub?***

- Valideynlərimlə keçirdiyim doğum günlərimi hələ də untmuram. Həmin günlərin yerini heç nə verə bilməz. 55 yaşım tamam olur. Builki doğum günümü isə hər zaman olduğu kimi, öz ailəmlə qeyd etdim. Ümumiyyətlə çox istəyərdim ki, cavanlıq illərimi indiki dövrdə keçirim. Çünki bugünki dövrdə ölkəmizdə idmana diqqət və qayğı çox böyükdür. Bizim vaxtımızda isə belə deyildi. Yarışlarda iştirak etmək çox çətin idi.

***- Cüdo idman növündə hansı nailiyyətləri qazanmısınız?***

- Qeyd etdiyim kimi, bu idman növündə ilk addımlarımı "Lokomotiv" idman cəmiyyətində atmışam. 1973-cü ildə "Lokomotiv" İC-in təşkil etdiyi birincilikdə qalib adını qazandım. 1975-ci ildə keçirilən Bakı birinciliyində fəxri kürsünün ən yüksək pilləsində yer aldım. Bundan başqa dəfələrlə SSRİ-nin tərkibində keçirilən müxtəlif beynəlxalq yarışların qalibi və mükafatçısı olmuşam. 1984-cü ildə hərbi xidmətimi başa vurduqdan sonra Azərbaycan Pedaqoji Universitetinin ibtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə daxil oldum. İdman sahəsində qazandığım nailiyyətlərə görə 1987-ci ildə SSRİ idman ustası adına layiq görüldüm. 1989-cu ildə həmin fakültəni müvəffəqiyyətlə bitirdim.



***- Siz, həmçinin Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmisiniz. Həmin anları necə xatırlayırsınız?***

- Bəli. 1992-1993-cü illərdə Qarabağ döyüşlərinin iştirakçısı olmuşam. O, odlu-alovlu müharibə illəri bu gün də gözlərimin önündə canlanır. Həqiqətən də çox çətin günlər idi. Mən həmin vaxtı Yasamal taborunda komandir müavini idim. Onu da qeyd edim ki, tabor komandirimiz Mirələkbər İbrahimova ölümündən sonra milli qəhrəman adı verildi. Taborumuz müharibə illərində böyük rəşadət göstərib. Sonuncu döyüş yerimiz Füzuli rayonunun Şükürbəyli kəndi istiqamətində olub. Bir sözlə, həmin müharibə illəri bü gün də yaddaşımda silinməz izlər qoyub.

***- İstərdik bir qədər də məşqçilik fəaliyyətiniz barədə məlumat verərdiniz?***

- Məşqçilik fəaliyyətimə Azərbaycan Dövlət İqtisad Universitetinin idman kafedrasında başlamışam. Həmin kafedrada tələbələrə cüdo və sambo bölməsi üzrə məşqlər keçirdim. 1994-cü ildən isə fəaliyyətimi klublarda davam etdirməyə başladım. Müxtəlif illərdə "Neftçi", "Lokomotiv", "Zenit", "Dinamo" idman cəmiyyətlərində məşqçi kimi çalışmışam. 1998-ci ildə "Şahin" idman klubu yaradıldıqdan sonra bu kluba cüdo üzrə baş məşqçi vəzifəsinə təyin olundum. Həmin gündən indiyədək burada fəaliyyətimi davam etdirirəm. Bundan başqa uzun illər Azərbaycan Tibb Universitetinin idman kafedrasında cüdo bölməsinə rəhbərlik etmişəm. Yetirmələrim dəfələrlə Azərbaycan birinciliyinin qalib və mükafatçıları olublar. Tələbələrimdən Emin Fətullayevin yetirməsi Kəramət Hüseynov gənclər arasında Avropa çempionu və dünya çempionatının gümüş mükafatçısı adını qazanıb.

***- İdman sahəsindəki xidmətləriniz lazımi səviyyədə qiymətləndirilib?***

- Uzun illərdir ki, ölkəmizdə idmanın inkişafı və perspektivli idmançıların hazırlanmasına ximət göstərirəm. Bu gün məni sevindirən odur ki, bu illər ərzində çəkdiyim əziyyət bəhrəsiz qalmayıb. 2009-cu ildə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşam. 2011-ci ildə isə mənə Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi adı verilib. Tələbələrimin beynəlxalq yarışlarda göstərdikləri nəticələrə əsasən isə 2012-ci ildə Azərbaycan Respublikasının Əməkdar məşqçi fəxri adına layiq görülmüşəm.

*Azər Əlizadə*



# "Qara qartallar"dan Avropa Liqasında uğurlu start

UEFA Avropa Liqasında üçüncü təsnifat mərhələsinin ilk oyunlarına yekun vurulub. Avropanın müxtəlif şəhərlərində 35 qarşılaşma keçirilib. Moldovanın "Şerif" komandası öz meydanında İslandiyanın "Valyur" klubunu qəbul edib. Görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə başa çatıb. "Qarabağ" Çempionlar Liqasının III təsnifat mərhələsində BATE-ni mübarizədən kənarlaşdıra bilməsə, o zaman Avroliqanın pley-offunda məhz bu cütün qalibi ilə qarşılaşacaq.

"Beşiktaş" İstanbulda Avstriyanın LASK klubu ilə qarşılaşıb. Türkiyə təmsilçisi 1 cavabsız qolla rəqibini üstələyib. Digər Türkiyə klubu "Başakşəhər" isə doğma meydanda "Bernli" (İngiltərə) ilə qolsuz heçheçə edib. Rusiyanın "Zenit" klubu səfərdə "Dinamo"ya (Minsk) 0:4 hesabı ilə uduzub. "Sevilya" isə İspaniyada "Jalqris"dən (Litva) üstün olub - 1:0.

## Avropa Liqası

**Üçüncü təsnifat mərhələsi, ilk oyunlar**

**9 avqust**

UFA (Rusiya) - "Proqres" (Lüksemburq) - 2:1
"Spartak" (Latviya) - "Suduva" (Litva) - 0:1
"Alaşkert" (Ermənistan) - ÇFR (Rumıniya) - 0:2
"Hapoel" (Hayfa, İsrail) - "Atalanta" (İtaliya) - 1:4
"Leyptsiq" (Almaniya) - "Universitatya" (Rumıniya) - 3:1
"Mariupol" (Ukrayna) - "Bordo" (Fransa) - 1:3
"Siqma" (Çexiya) - "Kayrat" (Qazaxıstan) - 2:0
"Şturm" (Avsriya) - AEK (Kipr) - 0:2
"Trençin" (Slovakiya) - "Feyenoord" (Hollandiya) - 4:0



"Ludoqorets" (Bolqarıstan) - "Zrinski" (Bosniya və Herseqovina) - 1:0
"Hapoel" (Beer-Şeva, İsrail) - APOEL (Kipr) - 2:2
"Torpedo" (Gürcüstan) - "Kukesi" (Albaniya) - 5:2
"Apollon" (Kipr) - "Dinamo" (Brest, Belarus) - 4:0
"Yagelloniya" (Polşa) - "Gent" (Belçika) - 0:1
"Norşelland" (Danimarka) - "Partizan" (Serbiya) - 1:2
MOİK (Bolqarıstan) - "Kopenhagen" (Danimarka) - 1:2
"Vitess" (Hollandiya) - "Bazel" (İsveçrə) - 0:1
"Genk" (Belçika) - "Lex" (Polşa) - 2:0
"Olimpiakos" (Yunanıstan) - "Lütsern" (İsveçrə) - 4:0
"Olimpiya" (Sloveniya) - HİK (Finlandiya) - 3:0
"Zarya" (Ukrayna) - "Braqa" (Portuqaliya) - 1:1
"Hibernian" (Şotlandiya) - "Mölde" (Norveç) - 0:0
"Spartak" (Serbiya) - "Bröndbyu" (Danimarka) - 0:2
"Sarpsporq" (Norveç) - "Riyeka" (Xorvatiya) - 1:1
"Reyncers" ("Şotlandiya") - "Maribor" (Sloveniya) - 3:1
"Kork Siti" (İrlandiya) - "Rusenborq" (Norveç) - 0:2
TNS (Uels) - "Midtyullend" (Danimarka) - 0:2
"Hayduk" (Xorvatiya) - "Styaua" (Rumıniya) - 0:0
"Legiya" (Polşa) - "Düdelanj" (Lüksemburq) - 1:2
"Slovan" (Slovakiya) - "Rapid" (Avstriya) - 2:1



Ağdamın "Qarabağ" futbol klubu UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinin cavab matçında qarşılaşacağı BATE ilə oyun üçün avqustun 12-də Belarusa yollanıb.

Oyundan əvvəl "Qarabağ" klubunun prezidenti Abdolbari Gözəl avqustun 11-də komandanı ziyarət edib.

Son məqsədən əvvəl komandanın bazasına gələn A.Gözəl baş məşqçi Qurban Qurbanov ilə görüşüb. Görüşdə komandanın son qarşılaşması, ümumiyyətlə, cari mövsümdə avrokubok perspektivləri haqqında danışılıb.

# "Qarabağ" klubunun prezidenti komandanın üzvləri ilə görüşüb

Komandanın üzvləri ilə də görüşən klub prezidenti BATE ilə sonuncu qarşılaşmada məğlubiyyətə baxmayaraq, futbolçulara inandığını, xüsusilə ikinci hissədəki oyundan məmnunluğunu bildirib. Komandanın uzun illərdir baş məşqçi Qurban Qurbanovun rəhbərliyi ilə sabit oyun göstərdiyini deyən klub prezidenti "Qarabağ"ın artıq Avropada və dünyada tanınan klub olduğunu qeyd edib. O, nəinki futbolda, həyatda da düzgün strategiyanın vacibliyini vurğulayaraq, "Qarabağ"ın uğurlarının sabitlik, dürüstlük və ədalət prinsipləri üzərində qurulduğunu bildirib.

Baş məşqçiyə, komandaya inamını nümayiş etdirən klub prezidenti onların Belarusda müvəffəqiyyət qazanacağına inandığını diqqətə çatdırıb və futbolçulara uğurlar arzulayıb.

"Borisov Arena"da keçiriləcək BATE - "Qarabağ" matçı bu gün Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.

# *UEFA-dan təmsilçimizə növbəti təyinat*



FIFA referisi Əliyar Ağayev UEFA-dan növbəti təyinat alıb.

UEFA Avropa Liqasının pley-off mərhələsi çərçivəsində "Yaqelloniya" (Polşa) - "Gent" (Belçika) qarşılaşmasının qalibi ilə "Mariupol" (Ukrayna) - "Bordo" (Fransa) görüşündə üstün olan komanda arasında avqustun 23-də keçiriləcək oyunun baş hakimi Əliyar Ağayev olacaq.

Ona Rza Məmmədov və Zeynal Zeynalov kömək edəcəklər. Dördüncü hakim funksiyasını Orxan Məmmədov yerinə yetirəcək.

## "Barselona" tarixində 13-cü dəfə İspaniya Super Kubokunu qazanıb

Futbol üzrə İspaniya Super Kubokunun qalibi müəyyənləşib.



Mərakeşin Tancer şəhərində təşkil olunan görüşdə qalib adı uğrunda "Barselona" ilə "Sevilya" klubları mübarizə aparıb.

Qarşılaşmada hesabı "Sevilya" açıb. 9-cu dəqiqədə Pablo Sarabia fərqlənib. Lakin 42-ci dəqiqədə Jerard Pike tarazlığı bərpa edib. 78-ci dəqiqədə Osman Dembelenin vurduğu daha bir qol Kataloniya klubuna 2:1 hesablı əzmkar qələbə və İspaniya Super Kubokunu qazandırıb. Bu, "Barselona"nın tarixində 13-cü Super Kubok zəfəridir.

Qeyd edək ki, Erneste Valverdenin baş məşqçi olduğu komanda ötən mövsüm həm çempionluq, həm də ölkə kubokunu qazanıb. Kubokun finalında "Barselona" məhz "Sevilya"nı 5:0 hesabı ilə məğlub edib. Qaydalara əsasən, hər hansı komanda "qızıl dubl" etdikdə, Superkubok matçında finalçı ilə qarşılaşmalıdır.

Xatırladaq ki, Kataloniya klubu 1983, 1991, 1992, 1994, 1996, 2005, 2006, 2009, 2010, 2011, 2013 və 2016-cı illərdə də İspaniya Super Kubokunu başı üzərinə qaldırıb. "Sevilya" isə cəmi bir dəfə - 2007-ci ildə Super Kubokda qələbə sevinci yaşayıb.

## "Bavariya" Almaniya Super kubokunun qalibi oldu

Avqustun 12-də "Bavariya" və "Ayntraxt" klubları arasında Almaniya Super kubok uğrunda oyun keçirilib. Qarşılaşma "Komerz Bank Arena" stadionunda təşkil olunub. Matç Münxen təmsilçilərinin 5:0 hesablı qələbəsi ilə başa çatıb. Qalib tərəfin heyətində Robert Levandovski (3), Kinqsli Koman və Tiaqo Alkantara fərqləniblər. "Bavariya" bu qələbə ilə tarixində yeddinci dəfə Almaniya Super kubokunun qalibi olub.

## Transfer "Yuventus"a 3,5 milyon izləyici qazandırıb

Portuqaliyalı hücumçu Kriştianu Ronaldonun "Yuventus"a transferi Turin klubuna "Instagram"da 3,5 milyon yeni izləyici qazandırıb.

"Yuventus"un "YouTube" videokanalının populyarlığı 70% artıb.

Son ay ərzində bəyənmələr, şərhlər və paylaşmaların ümumi sayı isə 2018-ci ilin bütövlükdə analoji göstəricilərinin 45%-ni təşkil edir.

# Olimpiya çempionu Avstraliyada

Atletika karyerasını başa vuran Olimpiya çempionu, məşhur sprinter Useyn Bolt Avstraliyanın "Sentral Kost Mariners" futbol klubu ilə müqavilə imzalayıb.

Bu barədə klubun rəsmi "Twitter" səhifəsi məlumat yayıb.

Bu, peşəkar futbolçu müqaviləsi sayılmır. Ancaq U.Bolt əsas komanda ilə peşəkar səviyyədə futbol oynaya biləcək.

Müqavilə imzaladıqdan sonra Bolt bildirib: "Avstraliyaya gəldiyim üçün xoşbəxtəm. Mənə bu fürsəti verən klubun sahibi və rəhbərliyinə təşəkkür edirəm. Peşəkar futbol oynamaq mənim arzum idi. A liqasında oynamaq yaxşı təcrübə olacaq".




"Everton" "Barselona"nın müdafiəçisi Yeri Minanı heyətinə cəlb edib. İngiltərə klubu kolumbiyalı futbolçuya görə 30,25 milyon avro ödəyib. Bundan əlavə ingilislər kataloniyalılara bu razılığa əsasən 1,5 milyon avro bonus ödəyəcəyinə də söz verib. Xatırladaq ki, barselonalılar Minanı "Palmeyras"dan 11,8 milyon avro dəyərində transfer etmişdilər.

* * *

İspaniyanın "Atletiko" klubu "Milan"ın hücumçusu Nikola Kaliniçlə heyətini gücləndirib. İspaniyalılar xorvatiyalı futbolçu ilə 2021-ci ilin yayına qədər razılaşma əldə ediblər.

Qeyd edək ki, 30 yaşlı Kaliniç "rossonyerlər"in heyətində 41 maçtda 6 qol vurub, 4 məhsuldar ötürmə ilə yadda qalıb.

* * *

"Tottenhem"in yarımmüdafiəçisi Kristian Eriksen Madrid "Real"ına keçə bilər. "The Mirror" nəşrinin verdiyi məlumata görə danimarkalı futbolçunun keçidi Luka Modriçin "İnter"ə transfer olunacağı təqdirdə dəqiqləşəcək. Artıq bu barədə madridlilər 26 yaşlı futbolçu ilə danışıqlara başlayıblar.

* * *

"Barselona"nın müdafiəçisi Marlon karyerasını İtaliyada davam etdirə bilər. "El Mundo Deportivo"nun verdiyi məlumata görə "Sassuolo" rəhbərliyi 22 yaşlı futbolçunu heyətində görmək istəyir. Məlumat üçün bildirək ki, Marlon 2016-cı ildə "Fluminense"dən "Barselona"ya keçib. Xatırladaq ki, ötən yay kataloniyalılar Marlonu "Nitsa"ya icarəyə veriblər.

* * *

Madrid "Real"ının xorvatiyalı yarımmüdafiəçisi Mateo Kovaçiç "Çelsi"yə keçib. "Sky Sports"un verdiyi məlumata görə 24 yaşlı xorvatiyalı futbolçu London klubunda baxışdan keçmək üçün İngiltərəyə yollanıb.

Əvəzində "zadəganlar"ın belçikalı qapıçı Tibo Kurtua Madridə yola düşüb. Bu mövsüm Kovaçiç "Real"ın heyətində 35 oyunda 2 məhsuldar ötürmə ilə yadda qalıb.

"Çelsi" ilə "Real" arasında qarşılıqlı anlaşma əsasında baş verib. Belə ki, "kral klubu" London təmsilçisinin belçikalı qapıçısı Tibo Kurtuanı heyətinə cəlb edib. Madridlilər 26 yaşlı belçikalıya görə "Çelsi"yə 39 milyon avro ödəyib.

* * *

"Atletiko"nun hücumçusu Kevin Qameyro "Valensiya"nın hədəfindədir. Artıq tərəflər arasında ilkin razılıq əldə olunub. Belə ki, fransalı futbolçu üçün "Atletiko" 18 milyon avro tələb edir. "Yarasalar" isə bu şərtlə razılaşmaq məcburiyyətindədirlər.

* * *

"Real Sosiyedad"ın belçikalı yarımmüdafiəçisi Adnan Yanuzay yenidən İngiltərəyə qayıtmaq istəyir. İspaniya təmsilçisindən əvvəl "Mançester Yunayted"in heyətində çıxış edən 23 yaşlı futbolçu karyerasını "Mançester Siti"də davam etdirməyi düşünür. "Şəhərlilər" San-Sebatiyan təmsilçisinə Yanuzay üçün 60 milyon avro təklif edir.

* * *

"Lester" klubu ingiltərəli hücumçusu Ceymi Vardi ilə bağlı söz-söhbətə son qoyub. "Tülkülər" haqqında danışılan futbolçu ilə müqavilənin müddətini artırıb. O, 2022-ci ilə qədər "Lester"in şərəfini qoruyacaq. Xatırladaq ki, 31 yaşlı Ceymi Vardi ötən mövsüm "Lester"in heyətində 42 matçda çıxış edərək, 23 qol vurub.

* * *

Rusiya millisinin və "Zenit"in futbolçusu Artyom Dzyuba Türkiyədə çıxış edə bilər. Rusiya mətbuatında yayılan xəbərə görə, 29 yaşlı hücumçu ilə "Qalatasaray" maraqlanır. O, danışıqlar üçün Türkiyəyə dəvət olunub. Qeyd edək ki, Dzyuba ötən mövsümün ikinci yarısından etibarən "Arsenal Tula"da çıxış edib.

* * *

Türkiyənin "Fənərbağça" klubu heyətini yeni futbolçu ilə gücləndirib. "Sky Sports"un yaydığı xəbərə görə, İstanbul



təmsilçisi "Lester"in hücumçusu İslam Slimanini icarəyə götürüb. Əlcəzairli forvard yeni klubu ilə 1 illik müqavilə imzalayıb. 30 yaşlı futbolçunun "sarı-lacivərdlilər"də illik 4,5 milyon avro qazanacağı iddia olunur. Qeyd edək ki, Slimani ötən mövsümün yarısını icarə əsasında "Nyukasl"da keçirib.

* * *

Madrid "Real"ının futbolçusu Luka Modriç yeni müqavilədən sonra Madrid klubunda qalmaq qərarına gəlib.

Qeyd edək ki, yeni müqavilə ilə L.Modriçin maaşı artırılacaq. Xatırladaq ki, L.Modriçin "İnter"ə keçəcəyi iddia olunurdu.

* * *

Qonsalu Qedeş PSJ-ni tərk etmək ərəfəsindədir. İngiltərənin "Uotford" klubu portuqaliyalı yarımmüdafiəçini heyətinə cəlb etmək istəyir. İngiltərə təmsilçisi 21 yaşlı futbolçu üçün 60 milyon avro ödəməyə hazırdır.

* * *

Fransa millisinin sabiq üzvü Bakari Sanya MLS liqasının təmsilçisi "Monreal



İmpekt"ə transfer olunub. 35 yaşlı müdafiəçi ilə 2018/2019 mövsümünün sonuna kimi müqavilə imzalanıb.Tərəflər razılığa gələcəyi təqdirdə, mövsümün sonu müqavilənin müddətini daha 1 il artıra biləcəklər. Qeyd edək ki, Bakari Sanyanın son klubu "Benevento" olub.

# DÜNYA İDMANI





## İdmançını "gicbəsər" adlandırdı

ABŞ prezidenti Donald Tramp NBA-nın tanınmış basketbolçusu olan Lebron Ceymsi gicbəsər adlandırıb.

Donald Tramp bunu Lebron Ceymsin CNN kanalı ilə müsahibəsi zamanı "Twitter" səhifəsindən deyib: "Lebron Ceymsdən müsahibə alan jurnalist Don Lemon özünü gicbəsər kimi aparır. O, belə edir ki, Lebron Ceyms tamaşaçıların gözündə ağıllı görünsün. Amma bu belə deyil".

## "Nike" şirkəti kilsəni aldı

"Nike" şirkəti Çikaqo kilsəsini basketbol meydançasına çevirib. Çikaqo kilsəsi 1885-ci ildə inşa edilib. Bura ibadət etməyə gələnlərin sayı azaldığından bina satlığa qoyulub. "Nike" şirkəti həmin binanı satın alaraq əsil basketbol məbədinə çevirib.



## Kobe Brayant yenidən idmana qayıdacaq

Dünya şöhrətli basketbolçu və idman aləmində "Qara mamba" adı ilə tanınan Kobe Brayant yenidən idmana qayıdacaq.

Bu barədə NBA-nın "Leykers" klubunun favorit oyunçusu Lebron Ceyms deyib. Onun sözlərinə görə, Kobe Brayantın "Leykers"ə, ümumiyyətlə, basketbola qayıtması tamamilə mümkündür.

Qeyd edək ki, Kobe ilə Lebron çox yaxın dostdurlar.

## Yeni dünya çempionu bəlli oldu

Kolumbiyalı Eleyder Alvarez boks üzrə yeni dünya çempionu olub.

Eleyder Alvarez WBO versiyası üzrə çempionluq kəməri uğrunda döyüşdə rusiyalı rəqibi Sergey Kovalyovu məğlub edib. Boks üzrə yarımağır çəkidə keçirilən yarışlarda Kovalyov 7-ci raunda qədər tab gətirə bilib. ABŞ-ın Atlantik-Siti şəhərində baş tutan görüşdə qələbə qazanan Alvarez bu qələbə ilə ilk titulunu qazanıb.



## "Mançester Yunayted"in yeni 10 nömrəsi kimdir?

"Mançester Yunayted" klubunun heyətində 10 nömrəli formanın yeni sahibi müəyyənləşib. Britaniya mətbuatına istinadən yayılan məlumata görə baş məşqçisi Joze Mourinyo həmin nömrəni Markus Reşforda verib. Bu barədə portuqaliyalı məşqçi deyib: "Markus həmişə bu formanı geyinmək istəyirdi. Təbii ki, indiyə qədər Ueyn Runi, Zlatan İbrahimoviç kimi böyük oyunçuların geyindiyi bu formanı gözləyib.



İndi isə 10 nömrəli forma sahibsizdir və Reşford bu fürsəti əldə etdi. Bu nömrənin onun üçün nə qədər dəyərli olduğunu bilirəm".

## Zeydoorf milli komandaya baş məşqçi təyin edildi

Hollandiyalı mütəxəssis Klarens Zeydoorf Kamerun millisinin baş məşqçisi təyin edilib. Bu haqda Kamerun Futbol Federasiyasının rəsmi "Tvitter" səhifəsi məlumat yayıb. "Milan", "Real" və Hollandiya millisinin sabiq futbolçusuna məşhur Patrik Klüyvert kömək edəcək. Xatırladaq ki, 42 yaşlı Zeydoorf bundan öncə "Milan", eləcə də Çinin "Şençjen" və "Deportivo" klublarında işləyib.

## Ronaldo xəstəxanaya yerləşdirilib

Braziliya millisinin sabiq üzvü Ronaldo xəstəxanaya yerləşdirilib.

Hadisə ötən həftənin cümə günü baş verib. 41 yaşlı veteran futbolçu İspaniyanın İbiza adasında istirahət edərkən vəziyyəti qəflətən pisləşib. Həkimlər ona pnevmaniya diaqnozu qoyublar.

## Messi ən titullu futbolçudur

"Barselona"nın futbolçusu Lionel Messi Kataloniya klubunun ən titullu oyunçusudur.

Argentinalı hücumçu "Barsa"nın İspaniya Superkubokunu qazanması ilə bu rekorda imza atıb. Qazanılan son kubok Messinin "Barselona"da 33-cü tituludur.

## Millidə karyerasını başa vurdu

"Barselona"nın müdafiəçisi Jerard Pike İspaniya yığmasında karyerasını başa vurub.

31 yaşlı futbolçu 2009-cu ildə debüt etdiyi yığmada 103 oyuna 5 qol vurub. Jerard Pike karyerasını bitirməklə bağlı qərarını belə izah edib: "Mən Luis Enrike ilə bir-iki həftə əvvəl söhbət etdim və ona belə bir düşünülmüş qərar qəbul etdiyimi dedim. Bu, çox gözəl dövr idi, mən bu dövrdə həm Avropa, həm də dünya çempionu oldum. Karyeramın qalan hissəsini Barselona"da keçirəcəyəm".



## Xeyriyyə məqsədilə 25 min dollarından keçdi

NBA-nın "Uorriorz" klubunun oyunçusu Stefen Karri peşəkar qolfçu Skotta Harrinqtona 25 min dollar hədiyyə edib.

Qeyd edək ki, qolfçunun həyat yoldaşı xərçəng xəstəliyindən əziyyət çəkir və həmin verilən pul onun müalicəsinə xərclənəcək. Həyat yoldaşı xəstə olduğuna görə, Skott Harrinqton yarışlarda iştirak edə bilmir.



## Məğlub olmağı sevmir

Novak Cokoviç ABŞ-ın Toronto şəhərində keçirilən "Masters" turnirində məğlub olub.

Dünya şöhrətli tennisçi Stefanos Tsisipasa 3:6, 7:6 və 3:6 hesabı ilə uduzub.

"Yaxşı çıxış etmək istəyirdim, amma alınmadı. Məğlubiyyəti qəbul edə bilmirəm, əhvalım çox pisdir. Rəqibim bu oyunda güclü nizam-intizam və gözəl oyun nümayiş etdirdi", - deyə Novak Cokoviç bildirib.

## Kiçik Şumaher iddialıdır

Formula-1 yarışlarının 7 qat çempionu Mixael Şumaherin oğlu Mik Şumaher atasının yolunu davam etdirir. Onun ən böyük arzusu Formula-1 komandasında yer almaqdır.

Mik Şumaher iyul ayında Avropa üzrə Formula-3 yarışlarında qalib gəlib və şəxsi hesabda 8-ci yeri tutub. 19 yaşlı avtopilot deyib: "Məqsədim Formula-1 yarışlarına düşməkdir. Çünki, bura atamın ikinci evi kimidir. Pillə-pillə irəliləyirəm. İnanıram ki, bunu bacaracağam".

## Rafael Nadal məmnundur

Tanınmış ispaniyalı tennisçi Rafael Nadal gənc və istedadlı tennisçilərlə bağlı fikirlərini bildirib.

"Gənc və güclü oyunçuların sayı getdikcə artır. Onlar gələcəkdə bizləri əvəz edəcəklər. Nə gizlədim, bizim dövrümüz gözəl idi. Eyni anda bir neçə idmançı uzun müddət liderliyi qoruyur, zirvədə qalmağı bacarırdı.

Müasir həmvətənlərimdən Haum Munyar da çox istedadlı idmançıdır. Biz belə tennisçilərin uğurlarına çox sevinir və onlara hər cür yardım göstəririk", - deyə tanınmış tennisçi söyləyib.

## Az qala həyatını itirəcəkdi

NBA-nın keçmiş oyunçusu Lamar Odom kameralar qarşısında basketbol oynayıb.

38 yaşlı basketbolçu bugünlərdə karyerasına yenidən davam edəcəyi və Çində oynamaq istəyi barədə fikirlərini bildirib.



Məlumat üçün bildirək ki, Lamar Odom 2015-ci ilin oktyabrında narkotikdən az qala həyatını itirəcəkdi. Yüksək dozada narkotik qəbul edən oyunçu komaya düşmüşdü.

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.